Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 180 (8203) ÇƏRŞƏNBƏ AXŞAMI, 20 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Kiçik sahibkarın böyük dəstəkçisi

### Prezident İlham Əliyevin yaratdığı Kiçik və Orta Biznesin İnkişafı Agentliyi iş adamları ilə dövlət qurumları arasında körpü rolunu oynayır

Hər bir ölkədə iqtisadiyyatın dayanıqlılığı kiçik və orta biznesin (KOB) inkişaf səviyyəsi ilə bağlıdır. İnkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlığın ÜDM-də payı 50 faiz, məşğulluqda isə 60 faizdən çoxdur. Avropa İttifaqına daxil olan ölkələrdə müəssisələrin 99 faizini kiçik və orta müəssisələr təşkil edir. İnkişaf etməkdə olan ölkələrdə ortahəcmli müəssisələr məşğulluğun əsas təminatçısıdır. Son 5 ildə Avropa məkanında yeni iş yerlərinin 85 faizi kiçik və orta biznes subyektləri tərəfindən yaradılıb.

Azərbaycanda sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar, aparılan islahatlar və dövlət dəstəyi tədbirləri nəticəsində özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib. Ölkə üzrə sahibkarlıq subyektlərinin 99 faizinin KOB subyektləri olması kiçik və orta sahibkarlığın ÜDM-də və ixracda payının artırılması üçün böyük potensialın olduğunu göstərir. KOB-ların ölkə iqtisadiyyatında rolunun və çəkisinin artırılması davamlı iqtisadi artımın təmin edilməsi baxımından prioritet istiqamətlərdəndir.

Prezident İlham Əliyevin sistemli islahatları nəticəsində xüsusilə son illərdə kiçik və orta sahibkarlığın maliyyə dayanıqlılığının artırılması, aşağı faizli kreditlərə çıxış imkanlarının genişləndirilməsi, güzəştli kreditlər verilməsi, eləcə də kiçik və orta biznesin inkişafının qanunverici bazasının möhkəmləndirilməsi istiqamətində xeyli işlər görülüb.

Dövlət başçısının 28 dekabr 2017-ci il tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində yaradılmış Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) fəaliyyətə başladığı (26 iyun 2018-ci il) zamandan bugünədək iş adamlarının ən yaxın dəstəkçisinə çevrilib. Agentlik KOB subyektlərinə bir sıra xidmətlər göstərən, dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsini və tənzimlənməsini həyata keçirən publik hüquqi şəxsdir və İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərir.

Qısa müddət ərzində kiçik və orta biznesin inkişafının dəstəklənməsi, ölkə iqtisadiyyatında KOB-ların rolunun artırılması, onların maraqlarının müdafiəsi, sahibkarlara vahid məkan prinsipi ilə xidmətlərin göstərilməsi, dövlət və özəl qurumların bu sahədə fəaliyyətinin əlaqələndirilməsi qurumun başlıca fəaliyyət istiqamətləri olub. Bir sözlə, agentlik kiçik və orta biznesin yaradılmasından başlayaraq, onun fəaliyyətinin bütün mərhələlərində mövcud dövlət dəstəyi mexanizmləri və göstərdiyi xidmətlər çərçivəsində KOB-lara yardımçı olur, dövlət qurumları ilə KOB subyektləri arasında körpü rolunu oynayır.

KOBİA sahibkarlarla 4 növ təmas platforması vasitəsilə ünsiyyətdə olmağı və xidmətlər göstərməyi hədəfləyir. Bunlar ərazi ("KOB Dostu" şəbəkəsi və KOB İnkişaf mərkəzləri), sektoral (sahəvi assosiasiyalar və fokus qruplar, "KOB klaster" şirkətləri), bir məkan prinsipi ("KOB evləri") və elektron vasitə ("e-KOB evi" portalı) platformalarıdır ki, bu mexanizmlərin bir neçəsi artıq KOB-ların xidmətindədir. Digər dəstək mexanizmlərinin təşkili istiqamətində müvafiq tədbirlər həyata keçirilir və yaxın vaxtlarda sahibkarlar bu mexanizmlərdən də yararlana biləcəklər.

Hazırda ölkə üzrə yaradılmaqda olan "KOB Dostu" belə mexanizmlərdəndir. "KOB Dostu" konsepsiyasının yaradılması birbaşa olaraq agentliyin qarşısına qoyulmuş məqsədlərdən və hədəflərdən irəli gəlir. Belə ki, sahibkarın dostuna çevrilmək agentliyin əsas hədəflərindəndir. KOB dostları fəaliyyət göstərdiyi yerlərdə mikro, kiçik və orta sahibkarlara onların təşəbbüslərinin, potensial imkanlarının müəyyən edilməsi və reallaşdırılması, yeni KOB subyektlərinin yaradılması və inkişafının bütün mərhələlərində, eləcə də sahibkarların hüquqlarının müdafiəsi istiqamətində dəstək olur. KOB dostları daim sahibkarlarla sıx ünsiyyət yaradır, onların inkişaf ehtiyacları ilə maraqlanır və digər metodlar vasitəsilə öyrənir, yerlərdə KOB-lara göstərilən xidmətlərin monitorinqini aparır. "KOB Dostu" mexanizmi həm də ona görə əhəmiyyətlidir ki, bu vəzifəni daşıyan şəxslər sahibkarın müraciət etməsini gözləmir, özü onların görüşünə gedir, mütəmadi olaraq sahəvi görüşlər təşkil edirlər. Ümumilikdə ölkənin 10 iqtisadi rayonu üzrə 60 "KOB Dostu"ndan ibarət şəbəkənin yaradılması nəzərdə tutulur.

İqtisadiyyat Nazirliyində keçirilən geniş kollegiya iclasında nazir Şahin Mustafayev KOBİA-nın fəaliyyətini dəyərləndirərkən bildirib ki, KOB-lara dəstək məqsədilə yaradılmış agentlik tərəfindən 2019-cu ilin 6 ayı ərzində mikro, kiçik və orta sahibkarların məlumatlandırılması, onlara müxtəlif xidmətlərin göstərilməsi, yeni dəstək mexanizmlərinin yaradılması, KOB-ların maraqlarının müdafiəsi istiqamətində müvafiq tədbirlər görülüb.

*Ardı 5-ci səh.*

## Xilas edilmiş bir uşağın təbəssümü...

### Mehriban xanım Əliyeva valideyn himayəsindən məhrum olanların ən böyük hamisidir



Ətrafı uşaqların şən sədası bürüyüb. Sevinirlər, qayğısızca gülür, oynayırlar. Ağaclara qulluq edir, torpağı belləyir, quşlara yuva düzəldirlər...

Qollarının gücünü yoxlayır, şahmatla zehinlərini sınağa çəkir, gəlinciklərini bəzəyir, bir-birinin saçlarını hörürlər...

Günəş üfüqdən boylanıb şəfəqləri ilə dan üzünü boyayanda isə dənizə yollanıb xırçın dalğaların qıvrılıb açılmasına, balaca barmaqları ilə qum üzərinə yazdıqları üç hərfdən ibarət o kəlməni bir həmlədə silməsinə tamaşa edir, amma birnəfəsə elə hey yazırlar: "ana", "ana"...

Kənarda dayanan məlul gözlü qızcığazsa nəzərləri ilə dənizin ənginliklərinə nüfuz etmək, qızıl balığın üzə çıxaraq ona illərdir dilədiyi arzunu yerinə yetirməkdə kömək edəcəyini ümidlə gözləyir... O, bu anı xəyalında dəfələrlə canlandırıb, deyəcəyi sözləri beynində səsləndirib: "Anamı qaytar mənə. Yuxularda yox, həyatda görmək istəyirəm onu. Qollarımı dolayım boynuna, bərk-bərk qucaqlayım, bir daha yanımdan heç yerə getməyə qoymayım..."

### "Uşaqlara yaxşılıq nə qədər çox olsa, yenə azdır"

Uşaq hüquqlarının təmin edilməsi ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu siyasətin uğurla reallaşdırılmasına Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva hərtərəfli dəstək verir. Mehriban xanım valideyn himayəsindən məhrum olan uşaqların mənəvi anasıdır. Onların hərtərəfli inkişafı, keyfiyyətli təhsili, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması istiqamətində önəmli layihələr həyata keçirilir ki, bu istiqamətdə görülən bütün işlərin, əldə olunan nailiyyətlərin hamısı şəxsən Mehriban xanım Əliyevanın adı ilə bağlıdır.

Mehriban xanım hər zaman söyləyir ki, mən insanlara kömək göstərmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir.

"Uşaqlara yaxşılıq nə qədər çox olsa, yenə azdır" devizini həyat şüarına çevirən Birinci vitse-prezident hər zaman valideyn himayəsindən məhrum uşaqların taleyi ilə maraqlanır, onlara baş çəkir, bir ana kimi tövsiyələrini verir, valideyn əskikliyini duymalarını istəmir...

Amma bunlarla yanaşı, hər dəfə vurğulayır ki, heç nə ata-ana məhəbbətini əvəz edə bilməz, ona görə də insanları bu məsələdə daha məsuliyyətli və həssas olmağa çağırır.

### Bu düşərgə uşaqların yay istirahətini çimərlikdə keçirməsinə də imkan verir

Bakının Nizami rayonundakı 1 nömrəli uşaq evinin Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki istirahət düşərgəsinin fəaliyyəti də Heydər Əliyev Fondunun uşaqlarla bağlı reallaşdırdığı layihələr silsiləsinə daxildir.

Uzun illər istifadəsiz qalaraq baxımsız vəziyyətə düşən istirahət düşərgəsi Mehriban xanım Əliyevanın tapşırığı ilə yenidən tikilib və 2006-cı il may ayının 10-da Birinci vitse-prezidentin iştirakı ilə açılışı olub. Burada yataq, iaşə və inzibati binalardan ibarət 3 korpus müasir avadanlıqlarla təchiz olunub. Yaşıllıqlarla əhatələnmiş hovuz, rahat istirahət guşələri, tennis kortları uşaqların istifadəsinə verilib. 2013-cü ildə isə düşərgə əsaslı təmir edilib, həyətyanı sahəsi abadlaşdırılıb. Yeni, müasir stadion inşa olunub, hovuz yenidən qurulub, uşaqlara asudə vaxtlarını səmərəli keçirmələri üçün gözəl şərait yaradılıb.

*Ardı 2-ci səh.*

## Azərbaycan ipəyi qədim şöhrətini özünə qaytarır



Azərbaycanda minillik qədim tarixə və ənənələrə malik olan ipəkçilik Prezident İlham Əliyevin aqrar sektorun ənənəvi sahələrinin inkişafı istiqamətində reallaşdırdığı islahatların sayəsində yenidən intibah dövrünə qədəm qoya bildi.

İndi Azərbaycan ipəyi qədim şöhrətini özünə qaytarmaq, yenidən məşhurlaşaraq dünyaya səs salmaq üçün böyük imkanlara malikdir. 2015-ci ildə cəmi 236 kiloqram yaş barama tədarük edən kümçülər dörd il ərzində bu nadir məhsulun istehsalını cari ilin 6 ayının məlumatına görə 636,6 tona çatdırmaqla 21 ilin ən yüksək göstəricisini əldə etdilər. Beləliklə, 2015-ci illə müqayisədə kümçülər bu il 2697 dəfə artıq məhsul istehsal etdilər. Bu o deməkdir ki, ipəkçilikdə intibah baş verdi və bu da yüngül sənaeyinin inkişafına təkan verə biləcək ən güclü faktordur.

Kümçülərin arxasınca meydana ipəkçilər gəlir. Onların qarşısında Azərbaycan ipəyinin keçmiş şöhrətini geri qaytarmaq, müasir dünyanın ən qabaqcıl toxuculuq fabriklərinin təcrübəsinə söykənərək yeni ipək brendini cilalamaq kimi müqəddəs vəzifə dayanır. Rəssamların, modelyerlərin, dizaynerlərin yeni nəslinin yetişdirilməsi üçün sinergetik yanaşmanın tətbiqi vacibdir.

*Ardı 5-ci səh.*



## Paşinyan Aprel döyüşləri iştirakçılarına sahib çıxmır

### Ermənistanda etiraz aksiyaları səngimir




Ermənistanda hakimiyyət dəyişikliyindən sonra ölkədə müsbət istiqamətdə yeniliklərin olacağına dair gözləntilərin özünü doğrultmadığı artıq tam təsdiqini tapmaqdadır. Elə bunun bir real təzahürü dövlət qulluqçularının, hərbçilərin əməkhaqlarının azaldılmasıdır.

"Lragir" nəşri yazır ki, ölkədə artan iqtisadi böhran dövlət qurumlarının fəaliyyətinə, eləcə də maliyyələşməsinə ciddi problemlər yaradıb. Qeyd olunur ki, böhran səbəbindən bundan əvvəlki dövrdə dövlət qulluqçularının, hərbçilərin əməkhaqları 40 faizə qədər azaldılıb, əksər qurumlarda işçilər arasında ixtisarlar gedib.

Ölkədə etiraz aksiyaları da səngimir. Aksiyaların hədəfi müxtəlifdir. Bəziləri əvvəlki kütləvi etirazlar zamanı irəli sürdükləri tələb və problemləri bir daha baş nazirin yadına salırlar. Bu günlərdə Yerevanda Ermənistan hökuməti binası qarşısında "Ermənistan Ekoloji Cəbhəsi" adlı təşkilatın üzvləri mitinq keçirib. Aksiya iştirakçıları Cermux yaxınlığındakı Əmulsar (Əmulsarı) qızıl mədəninin fəaliyyətini dayandırmağı tələb edirlər.

*Ardı 5-ci səh.*

# Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə elmi-tarixi və fəlsəfi müstəvidə baxış

## Akademik Ramiz Mehdiyevin "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri" kitabı çapdan çıxıb

Azərbaycanın müstəqillik illərində yürütdüyü tarazlaşdırılmış xarici siyasət, neft-qaz ehtiyatlarından praqmatik şəkildə istifadə edilməsi, sosialyönümlü daxili siyasət onu haqlı olaraq bütün dünyada hörmət qazanmış müasir sabit dövlətə çevirib. Lakin Azərbaycan dövlətinin xarici siyasətinin ən mühüm prioriteti olan, keçmiş Sovet İttifaqından miras qalmış Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hələ də özünün qəti və ədalətli həllini gözləyir.




AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin Azərbaycan və rus dillərində yenicə çapdan çıxmış "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri" kitabında yer alıb.

### Mötəbər tarixi mənbələrə əsaslanan dəyərli nəşr

Akademik Ramiz Mehdiyev yeni əsərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin köklərinə nüfuz edərək hadisənin nədən başladığını ən mötəbər mənbələr əsasında, sistemli şəkildə və mərhələlər üzrə təhlil edir. Alimin fikrincə, bu münaqişənin mahiyyətini, səbəblərini və indiki konyunkturunu anlamaq üçün onu, ilk növbədə, Rusiya imperiyasının və sovet hakimiyyətinin Cənubi Qafqazda köçürmə siyasəti kontekstində araşdırmaq lazımdır.

Əsərdə I Pyotrun Qafqaza yürüşü və Xəzəryanı sahillərin Rusiyaya birləşdirilməsi, XIX əsrdə rus-İran müharibələri, Türkmənçay müqaviləsi və ermənilərin əzəli Azərbaycan torpaqlarına - keçmiş Qarabağ, Naxçıvan və İrəvan xanlıqları ərazisinə köçürülməsinin birinci dalğası, habelə Rusiya ilə Osmanlı İmperiyası arasında Adrianopol sülh müqaviləsindən sonra ermənilərin köçürülməsinin ikinci dalğası məntiqi ardıcıllıqla diqqətə çatdırılır. Bütün bunları müəllif hadisələrin cərəyan etdiyi dövrün mənbələri, o cümlədən Rusiyanın İranda səfiri olmuş Aleksandr Qriboyedovun "Ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi haqqında" (1828) qeydləri, Sergey Qlinkanın "Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri və Ermənistanın tarixi dövrlərinin ilkin qısa şərhi" (1831), Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları (1878) və digər mənbələr əsasında təqdim edir. Məsələn, kitabda istinad edilən Nikolay Şavrovun 1911-ci ilə aid qeydlərindən aydın olur ki, hələ o zaman Zaqafqaziyada 1 milyon 300 min ermənidən 1 milyondan çoxu yerli əhali deyil, Rusiya tərəfindən köçürülənlər olub. Bu və digər mənbələr regionda ermənilərin yerli müsəlman əhaliyə faiz nisbətinin süni şəkildə dəyişdirildiyini təsdiqləyir. Akademik təkzibedilməz faktları ümumiləşdirərək yazır: "Monofizit erməni kilsəsinin milli dövlət yaratmaq səyləri Rusiya imperiyasının müstəmləkəçilik maraqları ilə üst-üstə düşürdü: Rusiya ermənilərin İrandan və Türkiyədən Cənubi Qafqaza köçürülməsinə və gələcəkdə orada Türkiyə və İranla həmsərhəd olan ayrıca erməni vilayəti yaradılmasına kömək edir və öz növbəsində, ermənilərin üzərinə bu regionda çar Rusiyasının sədaqətli müttəfiqləri, yəni Rusiyanın forpostu olmaq vəzifəsi qoyurdu".

Çar Rusiyasının ermənipərəst siyasətinin sovet Rusiyası tərəfindən də davam etdirildiyini əsaslandıran akademik Dağlıq Qarabağ Muxtar Vilayətinin süni şəkildə yaradılmasını, habelə Zəngəzur, Göyçə və Azərbaycanın digər əzəli torpaqlarının Ermənistanın tərkibinə qatılmasını, Naxçıvanın anklava çevrilməsini buna misal olaraq göstərir. Müəllif həmçinin sovet dövlətinin Türkiyə ilə bağlı təşvişindən qaynaqlanan fəaliyyətini, Moskvadakı ermənipərəst dairələrin məqsədyönlü fəaliyyətini diqqətə çatdırır: "Gizli deyil ki, erməni şovinizminin ideoloqları ənənəvi olaraq Türkiyəyə və Azərbaycana açıq iddialar irəli sürür, Şərqi Anadolunun, Naxçıvanın, Qarabağın və Zəngəzurun vaxtilə "dənizdən-dənizə uzanan böyük Ermənistan"ın vilayətləri olduğunu deyirdilər. Sovet hakimiyyəti dövründə ermənilər Zəngəzur ərazisini özlərinə birləşdirmək və Qarabağ erməniləri üçün muxtariyyətə nail olmaq, bununla da gələcəkdə Dağlıq Qarabağın Azərbaycandan qoparılmasının təməlini qoymaq imkanı əldə etdilər".

Akademik Ramiz Mehdiyevin vurğuladığı məqamlardan biri də ermənilərin köçürüldükləri ərazidə etnik tərkibin dəyişdirilməsinə yönəldilən siyasətdir. Kitaba azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistan SSR-dən kütləvi deportasiyası, 1946-1949-cu illərdə Ermənistan ərazisinə ermənilərin köçürülməsinə dair faktlar daxil edilib. Görkəmli alim bu qənaətə gəlir ki, çar Rusiyası və sovet hakimiyyəti tərəfindən iki əsr ərzində həyata keçirilmiş köçürmə siyasəti regionun demoqrafik mənzərəsini əhəmiyyətli dərəcədə dəyişib. 1988-1993-cü illərdə azərbaycanlıların Ermənistandan, Dağlıq Qarabağdan və Azərbaycanın işğal edilmiş yeddi rayonundan qovulması bu prosesin son akkordu olub. Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, ilk növbədə, etnik azərbaycanlılara qarşı həyata keçirilən deportasiya, zor gücünə qovma və soyqırımı siyasətinin məntiqi nəticəsi və növbəti mərhələsi kimi baxmaq lazımdır.

Müəllif ötən əsrin 80-ci illərində baş vermiş hadisələrə toxunaraq yazır ki, SSRİ-nin ali rəhbərlərindən biri olan Heydər Əliyevin hakimiyyətdən kənarlaşdırılması nəticəsində Ermənistanın ultramillətçi dairələri, onların Kremldəki və xarici ölkələrdəki havadarları tərəfindən Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması və onun Ermənistana birləşdirilməsi üçün əlverişli siyasi zəmin yaradıldı. Mixail Qorbaçov başda olmaqla SSRİ-nin ovaxtkı rəhbərliyinin millətçilərin separatçılıq səylərinə himayədarlıq yolunu seçməsi vəziyyəti daha da kəskinləşdirdi və 1988-ci ilin fevralında Sumqayıt şəhərində törədilmiş təxribata məhz bu kontekstdə yanaşmaq lazımdır.

Akademik Dağlıq Qarabağda faciəli hadisələrin başlanğıcında Azərbaycanın ovaxtkı kommunist rəhbərlərinin və Xalq Cəbhəsi liderlərinin mövqesizliyinin, məsuliyyətsizliyinin və qeyri-peşəkarlığının da Azərbaycan ərazilərinin işğalına şərait yaratdığını təəssüflə qeyd edir.

### Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi dövlətlərarası münaqişə kontekstində

Münaqişənin sonradan SSRİ-nin dağılmasında katalizatorlardan birinə çevrildiyi fikri ilə razılaşan müəllif problemi həmçinin dövlətlərarası münaqişə kontekstində araşdıraraq yazır: "Bu münaqişə beynəlxalq problemə, regional və dünya miqyaslı müxtəlif aktorların və onların mənafelərinin toqquşduğu nöqtəyə çevrilməklə bərabər, həm də qarşıdurma vəziyyətindəki tərəflərə təsir və təzyiq mexanizmi oldu".

Kitabda problemin nizamlanmasının hüquqi əsası olan və bu gün də hüquqi qüvvəsini saxlayan beynəlxalq sənədlər nəzərdən keçirilir. Məsələn, SSRİ dağılandan sonra Azərbaycanın beynəlxalq sərhədləri (digər müttəfiq respublikaların sərhədləri kimi) dünya birliyi tərəfindən "uti possidetis juris" prinsipi əsasında, yəni müstəqillik əldə edildiyi anda mövcud olan keçmiş inzibati sərhədlər çərçivəsində tanındı. Bu müddəa Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında 1991-ci il 8 dekabr tarixli sazişdə də öz əksini tapdı. Saziş dekabrın 21-də Azərbaycan və Ermənistan da daxil olmaqla, on bir keçmiş müttəfiq respublika tərəfindən Alma-Atada imzalanmış protokol ilə təsdiqlənib. Müəllif buna misal olaraq bir sıra beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in, BMT-nin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələrini xatırladır.

Bununla yanaşı, əsərdə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın yürütdüyü uğurlu xarici siyasət, o cümlədən Budapeşt, Lissabon sammitlərində münaqişənin həlli istiqamətində irəliləyişlər də diqqətə çatdırılır. Eyni zamanda Qərb dövlətlərinin ikili standartları problemin həllinə mane olan amillərdən biri kimi göstərilir və konkret faktlarla əsaslandırılır.

### Ermənistan fürsəti əldən verərək sülhü uduzub

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanma perspektivləri barədə fikir yürüdən müəllif problemin həll edilməməsinin Ermənistana mənfi təsirlərinə dair yeni misallar gətirir. Məsələn, sabiq prezident Levon Ter-Petrosyanın "Müharibə, yoxsa sülh: düşünmək vaxtıdır" məqaləsindən götürülən tezislər bu gün də aktuallığını saxlayır. Yaxud "BE Berlin Economics GmbH" konsaltinq şirkətinin Berlin qərargahının bu ilin əvvəllərində apardığı "Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının Ermənistana və Azərbaycana iqtisadi təsiri" adlı araşdırmada sülhün qonşu dövlət üçün faydaları göstərilir.

Eləcə də siyasi kontekstdə, qondarma "ikinci erməni dövləti"nin beynəlxalq miqyasda tanınması haqqında məsələnin heç vaxt praktik müstəvidə qoyulmadığını bildirən akademik Ramiz Mehdiyev Ermənistanın baş naziri N.Paşinyanın danışıqlar formatını birtərəfli qaydada dəyişdirmək cəhdinin beynəlxalq vasitəçilər tərəfindən rədd edildiyini və martın 29-da Vyanada iki dövlətin rəhbərlərinin görüşünün formatının dəyişmədiyini vurğulayır. Həmçinin Prezident İlham Əliyevin görüşdən sonra TASS agentliyinə müsahibəsində səsləndirdiyi bu fikri xatırladır: "Danışıqların formatı dəyişilməz qalıb. Danışıqlar uzun illər olduğu kimi, Ermənistan ilə Azərbaycan arasında aparılır".

Akademik yazır: "Bütün bu illər ərzində erməni cəmiyyəti döyüş meydanında qazanılan "qələbə"ni tezliklə diplomatik sahədə möhkəmləndirmək ümidi ilə yaşayıb. Lakin Ermənistan rəhbərliyi bir məsələni başa düşə bilməyib ki, qonşu dövlətə təcavüz etməklə, onun ərazisini işğal etməklə, etnik təmizləmələr aparmaqla, şəhər və kəndlərini viran qoymaqla Ermənistan, əslində, qalib gəlməyib, uduzub! O, bu qədər fürsəti əldən verərək, sülhü uduzub. Bunu başa düşmək üçün bugünkü Azərbaycanı Ermənistanla müqayisə etmək, onların sosial-iqtisadi inkişafında fərqi qiymətləndirmək kifayətdir və bu fərq ildənilə daha da artacaq".

Əsərdə Dağlıq Qarabağda Ermənistan tərəfindən qurulmuş işğalçı rejimin cinayətkar mahiyyəti bir çox mənbələrə, o cümlədən britaniyalı Harrold Keynin "Narko-Qarabağ" kitabına istinadla açılıb göstərilir.

Amerikalı ilahiyyatçı Ceyms Friman Klarkın (1810-1888) bir çoxlarına yaxşı tanış olan "Siyasətçi növbəti seçkilər haqqında düşünən insandır, halbuki dövlət xadimi gələcək nəsillər haqqında düşünür!" sözlərini xatırladan akademik Ramiz Mehdiyev vurğulayır ki, münaqişə ədalətli şəkildə nizamlanmayana qədər Ermənistanın sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər baş verməyəcək.

Akademik Ramiz Mehdiyevin yeni kitabı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mənbələri və nizamlanma perspektivləri barədə aydın və bitkin təsəvvür yaradır. Problemin mahiyyətini ictimaiyyətə, xüsusən rusdilli oxuculara çatdırmaq baxımından böyük əhəmiyyətə malik olan bu əsər politoloji tədqiqatlar, siyasi araşdırmalar üçün də mötəbər mənbədir.

# Daxili İşlər naziri Daxili Qoşunların paytaxtda yerləşən "N" saylı hərbi hissəsində olub

Avqustun 18-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının paytaxtda yerləşən "N" saylı hərbi hissəsində olub. Əvvəlcə nazir müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov general-polkovnik Vilayət Eyvazova şəxsi heyətin və hərbi texnikanın baxışa hazır olması barədə raport verib.




Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir şərəf manqası ilə salamlaşdıqdan sonra şəxsi heyətin kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu və təminat məsələləri ilə yaxından tanış olub, xidməti istifadədə olan texnikaya baxıb, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə maraqlanıb.

Sonra hərbi hissənin sıra meydanında hərbi qulluqçuların və əsgərlərin qarşısında çıxış edən nazir V.Eyvazov Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını, beynəlxalq mövqelərinin möhkəmləndiyini bildirib, dövlət başçısının ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatına, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıran nazir şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla qeyd edib. O, eyni zamanda, bildirib ki, torpaqlarımızın 20 faizi işğal altında olduğuna görə hazırda ölkəmiz müharibə şəraitindədir. Ona görə də Daxili Qoşunların şəxsi heyəti öz üzərilərinə düşən xidməti vəzifələri ilə bərabər, həm də torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası üçün hər an hazır olmalı, döyüş hazırlığı səviyyələrini daim yüksək saxlamalıdırlar.

Şəxsi heyətə konkret tapşırıq və tövsiyələrini verən Daxili İşlər naziri hərbi qulluqçuların qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə, xalqa, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklərinə əminliyini ifadə edib, xidmətdə fərqlənən hərbi qulluqçuların mükafatlandırılması ilə bağlı müvafiq göstəriş verib.

Sonra Daxili İşlər naziri V.Eyvazovun rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib.

Tədbirin sonunda general-polkovnik V.Eyvazov hərbi hissənin əsgər yeməkxanasında şəxsi heyətlə birlikdə nahar edib.

# Xilas edilmiş bir uşağın təbəssümü...

## Mehriban xanım Əliyeva valideyn himayəsindən məhrum olanların ən böyük hamisidir

*Əvvəli 1-ci səh.*

Düşərgənin dəniz yaxınlığında yerləşməsi isə onlara yay aylarında istirahətlərini çimərlikdə keçirmələrinə də imkan verir.







### "Mehriban xanımın sayəsində biz də özümüzü güvənli hiss edirik"

Adıçəkilən istirahət düşərgəsində dincələn uşaq evinin sakinləri ilə həmsöhbət oluruq.

12 yaşlı Məhəmməd deyir ki, bu düşərgədə olmaq onda məmnunluq yaradır: "İstirahət düşərgəsinə gəlib dincəlməyi, xüsusilə dostlarımla dənizə gedib üzməyi, qum üzərində futbol oynamağı xoşlayıram".

Nuray da dənizi çox sevir: "Amma mən daha çox onu seyr etməyi və dalğaların səsini dinləməyi xoşlayıram. Bu, mənə mənəvi sakitlik verir".

6 ildir ki, uşaq evinin sakini olan Nuray təbiət rəsmləri çəkdiyini söyləyir: "İstirahət düşərgəmizə gələndə çox sevinirəm. Çünki burada səmanın, dənizin, quşların, ağacların, bir sözlə, təbiətin rəsmini daha yaxşı çəkirəm".

Rəhimə isə sevinclə bildirir ki, elə bu yaxınlarda Mehriban xanımın dəstəyi ilə 10 gün müddətinə uşaq evinin sakinləri Moskva şəhərində olublar: "Leyla xanım bizi orada xeyli görməli yerlərə apardı, oyunlar oynadıq, gəzdik, hətta bizə hədiyyələr də verdilər. Biz Leyla xanımın ad günündə də iştirak etdik, onunla tort da kəsdik. Mehriban xanımı da, Leyla xanımı da çox sevirik. Hər zaman onların sevgi və diqqətini üzərimizdə hiss edirik".

















"7 ildir ki, bu uşaq evindəyəm. Yeni gələndə bura heç cür uyğunlaşa bilmirdim. Hər gün ağlayır, anamı, atamı, evimizi istəyirdim. Özümü tənha, kimsəsiz hesab edirdim. Amma bizə göstərilən qayğı sayəsində zamanla mən də həyata tapındım. Çünki burada gələcəyimizin xoşbəxt təməllər üzərində qurulması üçün bizə hər cür qayğı göstərirlər. Bütün bu imkanlar isə Mehriban xanımın xüsusi diqqəti sayəsindədir. Hər an onun şəfqətini, qayğısını üzərimizdə hiss edir, ana hənirini ondan alır, uşaq evinin sakinləri kimi kimsəsizliyimizi unuduruq" deyə uşaq evinin 15 yaşlı sakini Aysu fikirlərini bölüşür.

Mirzə isə söyləyir ki, "düzdür, anamız, atamız yanımızda yoxdur, daim onların həsrətini çəkirik, amma ətrafımızda bizə qarşı olan sevgi, şəfqət, qayğı bu nisgilimizi ovutmağa kömək edir. Artıq biz də özümüzü güvənli hiss edirik, doğma ocağımıza çevrilib bu ünvan".

Həmsöhbət olduğumuz kimsəsizlər evinin sakinlərinin hər biri vurğulayır ki, Mehriban xanımın qayğıkeşliyi, səmimiyyəti sayəsində analarının yoxluğunu o qədər də hiss etmirlər. Buna görə hər zaman söyləyirlər ki, "biz kimsəsiz deyilik".

### Bu uşaqlar Mehriban xanımın şəxsi himayəsindədir

Uşaq evinin direktoru Nərminə Zöhrabova məlumat verdi ki, uşaqlar düşərgəyə təkcə yayda, tətillərdə yox, il ərzində şənbə və bazar günləri də gəlirlər: "Uşaqlar bu düşərgəni çox sevir. Ağaclara, güllərə qulluq edir, müxtəlif oyunlar, yarışlar keçirirlər. Uşaqlar bilə ndə ki, dənizə gedəcəklər, bax, bu, onlar üçün əsl bayrama çevrilir. Demək olar ki, onlar bu düşərgədə təbiətlə iç-içə yaşayır, onu kəşf edir, gözəlliklərini duyurlar".

N.Zöhrabova qeyd etdi ki, uşaq evinin sakinlərinə bu cür şəraitin yaradılması, onların bütün istək və arzularının yerinə yetirilməsi Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Bu uşaqlar Mehriban xanımın daim nəzarətində, şəxsi himayəsindədirlər: "Elə bir şey yoxdur ki, bizim ona ehtiyacımız olsun, Heydər Əliyev Fondu nə lazımdırsa, onu edir, yetər ki, bu barədə onlara deyək. Heç deməsək belə hər həftə, hər gün buradakı vəziyyətlə maraqlanırlar. Hazırda uşaq evinin iki sakini - Həmid Kazımov və İlkin Hüseynov Moskvada Prezident yanında İdarəçilik Akademiyasında təhsil alırlar və onların illik xərclərini Heydər Əliyev Fondu ödəyir. Həmçinin Azərbaycanın nüfuzlu universitetlərində oxuyan tələbələrimiz var ki, onların da bütün xərcləri fond tərəfindən ödənilir. Uşaqların istirahəti, mütəmadi xarici ölkələrə səfərlərinin təşkili də bu qəbildəndir. Bu il ərzində Türkiyədə, Rusiyada olmuşuq. Fondun vitse-prezidenti Leyla Əliyeva vaxtaşırı bu uşaqları ziyarətə gəlir. Onlarla sıx ünsiyyətdə olur, deyir, gülür, şənlənir. Demək olar ki, o, buradakı uşaqların hər birini adı ilə tanıyır və bu ocağın doğmasına çevrilib".

İstirahət düşərgəsində uşaqlarla bir gün keçirdik. Şən rəqslərini seyr etdik, şeirlərini, mahnılarını dinlədik, intellektual, fiziki yarışlarını izlədik. Rəngarəng əl işlərinə, çəkdikləri rəsmlərə tamaşa etdik. Amma bununla yanaşı, bir daha əmin olduq ki, yaradılan bütün şəraitə, diqqətə, qayğıya baxmayaraq heç bir uşaq evi buranın sakinlərinə doğma evlərini, valideynlərini əvəz edə, unutdura bilməz...

Çünki bu uşaqların kağız üzərində rəngli karandaşlarla ifadə olunan duyğularının əksəriyyətində üzərindən tüstü burumları qalxan isti yuvalar, əl-ələ tutmuş ata-ana-uşaq təsvirləri həkk olunub...

**Yasəmən MUSAYEVA,**
**Ağaəli MƏMMƏDOV (foto),**
**"Azərbaycan"**




## "Dövlət dəstəyi təsərrüfatımızı genişləndirməyə imkan verir"



Kürdəmirin Qarabucaq kənd sakini İlham Allahverdiyevin ailə təsərrüfatı bu mövsüm 50 hektar sahədə pambıq əkib. Pambıqçılıq sahəsində zəngin təcrübəsi olan ailə bol məhsul yetişdirib. Artıq bu günlər pambıq yığımına başlanacaq.

Pambıqçılıq vaxtilə kənddə əsas təsərrüfat sahəsi olub. Uzun fasilədən sonra aqrar sektorda aparılan islahatlar, Prezident İlham Əliyevin ixracyönümlü məhsulların, o cümlədən pambıqçılığın inkişaf etdirilməsi ilə əlaqədar verdiyi tapşırıq və tövsiyələr rayonda, o cümlədən Qarabucaq kəndində də əhali tərəfindən böyük razılıqla qarşılanıb.

AZƏRTAC-ın bölgə müxbiri ilə söhbətində İlham Allahverdiyev deyib: "Ailə üzvlərimizin çoxu, demək olar ki, işsiz idi. Bu sahənin inkişafı üçün həyata keçirilən tədbirlərə görə Prezidentə minnətdarıq. İndi hamımız işləyirik. Bu il satacağımız məhsuldan yaxşı gəlir götürəcəyik. Dövlət dəstəyi ildən-ilə təsərrüfatımızı daha da genişləndirməyə imkan verir. Bu mövsümdə hər hektardan azı 30 sentner məhsul əldə etmək əzmindəyik".

Qeyd edək ki, İlham Allahverdiyevin ailə təsərrüfatı keçən il də sahələrdən yaxşı məhsul götürüb və qəbul məntəqəsinə 132 ton pambıq təhvil verib.

## 45 min tondan çox tərəvəz yığılıb

Sabirabadda tərəvəz yığımının qızğın çağıdır. İstehsalçılar əkdikləri 3 min 432 hektar tərəvəz sahəsinin 3 min 144 hektarından bugünədək 45 min 354 ton məhsul tədarük ediblər.



Rayon Statistika İdarəsinin məlumatına görə, cari ilin yazında sabirabadlı fermerlər ötən ildəkindən 117 hektar çox tərəvəz əkmişlər. Əkin sahələrində bol məhsul yetişib. Yığıma vaxtında başlayan fermerlər bugünədək 3 min 114 hektardan 45,3 min ton tərəvəz yığıblar. Xatırladaq ki, ötən il bu rəqəm 44,2 min ton olmuşdur.

Yığılan məhsulun 1,2 min tonu kələm, 1,6 min tonu bibər, 11,3 min tonu xiyar, 15,8 min tonu pomidor, 5,2 min tonu badımcan, 5,5 min tonu soğan, 3,8 min tonu sarımsaqdır. Əkinçilər həmçinin 129 min 643,6 ton bostan məhsulları da yığıblar.

## Ötən həftə 11 rayonda 212 fermer təlim keçib

Cari ilin yanvar-avqust ayları ərzində Kənd Təsərrüfatı Nazirliyinin Təhsil və təlim şöbəsi tərəfindən 1123 təlim keçirilib. Təlimlərdə 20336 fermer və məhsul istehsalçısı iştirak edib.

Ötən həftə ərzində 11 müxtəlif rayonda 14 təlim keçirilib. Təlimlərə ümumilikdə 212 fermer və məhsul istehsalçısı cəlb olunub. Aqrar Xidmətlər Agentliyi, Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun mütəxəssisləri tərəfindən keçirilən təlimlərdə fermerlərə bitkiçilik, heyvandarlıq, texniki təhlükəsizlik qaydaları, aqrar sığorta və s. istiqamətlər üzrə yeni məlumatlar verilib, aqrotexniki və zootexniki qulluq qaydaları praktik nümayiş olunub. Praktiki məşğələlər bitkiçilik sahələri və heyvandarlıq təsərrüfatlarında keçirilib.

# İstehsal artır, güzəran yaxşılaşır



Kənd təsərrüfatı məhsulları istehsalının artırılması, ərzaq təhlükəsizliyinin təmin edilməsi bu gün dövlətin strateji hədəflərindəndir. Həyata keçirilən fundamental islahatlar, kənd təsərrüfatına hərtərəfli dövlət dəstəyi nəticəsində sözügedən sektorda əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur.

Kənd təsərrüfatı məhsullarının istehsalı artmış, tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilmiş, ixrac potensialı genişlənmişdir. Prezidentin sosial-iqtisadi məsələlərlə bağlı keçirdiyi müşavirədə dediyi kimi, kənd təsərrüfatında rekod göstərici əldə edilmiş, 6 ayda məhsul istehsalı 13 faiz artmışdır. Bu onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar və kənd təsərrüfatına elmi yanaşma nəticəsiz qalmır.

Ağstafanın iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Rayonda əvvəlki illərdə olduğu kimi, cari ilin ötən dövrü ərzində də uğurlu göstəricilərə nail olunmuşdur. Torpaq sahiblərinin gərgin əməyi nəticəsində istehsal edilən kənd təsərrüfatı məhsullarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 18,7 faiz artmışdır. Rayon üzrə 10288 hektardan məhsuldarlıq 35,1 sentner olmaqla 36059 ton taxıl biçilmişdir. Bundan əlavə, cari il rayonda 5050,5 kiloqram barama istehsal olunmuşdur ki, bu da əvvəlki illə müqayisədə 1298 kiloqram və ya 34,6 faiz çoxdur. Cari mövsümdə müxtəlif növ kənd təsərrüfatı bitkilərinin yazlıq əkini də uğurla aparılmış, 8211 hektar sahədə kartof, tərəvəz və texniki bitkilər əkilmişdir.

Ağstafa suvarma suyu ilə təminatda çətinlik çəkən rayonlardandır. Odur ki, əkin sahələrinin vaxtında suvarma suyu ilə təmin edilməsinə ciddi nəzarət olunur. Ağstafaçay Hidroqovşaq İstismar İdarəsi tərəfindən bu ilin 6 ayı ərzində 13 qurğu, 6 hidropost və 14 kilometr beton kanallar cari, 3 selötürən, 4 suayrıcı qurğular, 3 dükker əsaslı şəkildə təmir edilmişdir. Ağstafa Suvarma Sistemləri İdarəsi də yaz-tarla işlərinə ciddi şəkildə hazırlıq işləri görmüş, nəticədə 44869 hektar əkin sahəsi vaxtında suvarılmışdır.



Əkin sahələrinin suvarılmasında subartezian quyularından da səmərəli istifadə olunur. Bu işdə Tovuz Subartezian Quyularının İstismarı İdarəsinin Ağstafa istismar sahəsi bütün imkanlardan istifadə edir. Eyni zamanda rayonda su sarıdan çətinlik çəkən bir neçə kənddə subartezian quyusu qazılır.

Rayonun içməli su probleminin həlli istiqamətində də xeyli iş görülmüşdür. "Ağstafa şəhərinin su təchizatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Prezidentin sərəncamı ilə ayrılan 4,6 milyon manat vəsait hesabına bu istiqamətdə başlanan işlərin bir hissəsi başa çatdırılmışdır. Vurğun qəsəbəsində su anbarının ərazisində sutəmizləyici qurğunun tikintisi, eləcə də Köçvəlili və Yenigün kəndlərinin içməli su təchizatında isə işlər yekunlaşmışdır.

Rayonun kənd və qəsəbələrində əhalinin rahatlığını təmin etmək üçün də bir sıra abadlıq işləri görülmüşdür. Cari ilin 6 ayı ərzində kənd nümayəndəlikləri tərəfindən 19,5 kilometr suvarma arxları təmizlənmiş, 15,9 kilometr yola çınqıl döşənmiş, 49 elektrik dayağı yenisi ilə əvəz olunmuş, 5 su keçidi salınmış, 4 elektrik transformatoru təmir olunmuş, 1,5 kilometr uzunluğunda içməli su xətti təmir edilmiş, Eynallı kənd stadionunda idman qurğuları quraşdırılmış, Tatlı kəndinin elektrik təsərrüfatı yenidən qurulmuşdur.

Kəndlərin rabitə sistemində də çoxsaylı yeniliklər edilmişdir. Pirili kəndi üçün 128 nömrə tutumu olan elektron ATS istifadəyə verilmiş, telefon və internet çəkilişi üçün xətt şəbəkəsinin tikintisi başa çatdırılmışdır. Sadıqlı kəndində elektron ATS-in tutumu artırılmış, Dağ Kəsəmən, Köçəsgər və Vurğun kəndlərində olan elektron ATS-lərdə 128 nömrə tutumlu internet avadanlığı quraşdırılmışdır.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Ağstafa rayonu üzrə 5 yeni məktəb binasının tikintisi, 4 məktəbin isə əsaslı təmiri nəzərdə tutulmuşdur. Proqramda nəzərdə tutulan 264 şagirdlik Böyük Kəsik kənd orta məktəbinin yeni binasında artıq son tamamlama işləri görülür. Eyni zamanda Muğanlı kənd orta məktəbində təmir işlərinə başlanılmış, Yaradullu kənd məktəbi üçün yeni modul tipli məktəbin quraşdırılması üçün yer ayrılmışdır.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Kəlbəcərlilər işsiz durmurlar

Ölkənin 54 rayonuna səpələnmiş kəlbəcərlilər məskunlaşdıqları ərazilərdə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olurlar.

Rayon üzrə ümumilikdə cari il 577 hektar sahədə əkin işləri aparılıb. O cümlədən 134 hektarda taxıl, 159 hektarda yonca, 25 hektarda dən üçün günəbaxan, 7 hektarda bostan, 252 hektarda isə pambıq əkilib.

Taxılın ümumi məhsuldarlığı hər hektardan 32,5 sentner olmaqla keçən ilə nisbətən 8 sentner artıb.

## Bu mövsum Masallıda çəltik bol olacaq

Məhsuldarlığı və gəlirliliyi ilə seçilən çəltikçilik Masallıda ənənəvi təsərrüfat sahələrindən biridir. Ağır əl əməyi tələb edən bu təsərrüfat sahəsi uzun müddət rayonda tənəzzül dövrünü yaşayıb.

Məhsul istehsalçılarına göstərilən dövlət dəstəyi - fermerlərə subsidiyaların verilməsi, gübrələrin və texnikaların güzəştli şərtlərlə satılması rayonda çəltikçiliyin dirçəldilməsi üçün geniş imkanlar açıb.

Təsərrüfatçı Teyyub Kərimov bildirib ki, bu il Masallı rayonunda 128 hektaradək sahədə çəltik əkilib: "Əsasən məhsuldar "Apollo", "Okean" və "Haşimi" növlərinə üstünlük verilib. Sahələrdə vaxtında bütün lazımi aqrotexniki işlər görülüb, zərərvericilərə qarşı tədbirlər aparılıb. Bundan başqa, çəltik əkini zamanı əkinçilər su sarıdan heç bir əziyyət də çəkməyiblər".

Masallı Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin baş məsləhətçisi Hasil Hüseynov isə diqqətə çatdırıb ki, son illər Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı böyük işlər görülür. Kənd təsərrüfatının ayrı-ayrı sahələri inkişaf edir, meliorativ tədbirlər həyata keçirilir, su təchizatı yaxşılaşdırılır.

Çəltiyin su tələb edən bitki olduğunu vurğulayan H.Hüseynov bu sahələrin kifayət qədər su ilə təmin edildiyini bildirib: "Bunun sayəsində ciddi məhsul artımı müşahidə olunur. Masallı təsərrüfatçıları bu il sahələrdən bol məhsul götürməyi proqnozlaşdırırlar. Ölkəmizdə istehsal olunan məhsullar yüksək keyfiyyətə malik olduğuna görə xaricdə ona tələbat da artır və daha çox məhsul ixrac edilir. Bu, ölkəmizin ixrac potensialını yüksəldir, fermerlərin daha çox qazanc əldə etməsinə səbəb olur".

# Qusarın kənd yolları yenidən qurulur



İqtisadiyyatının əsasını aqrar sektor təşkil edən Qusarda kənd yollarının yenidən qurulmasına diqqət artıb. Əvvəllər kəndli məhsulunu bazara cıxarmaq istəyəndə, ümumiyyətlə, şəhərə gediş-gəlişdə yol problemi yaşayırdı. Bəzən kənd təsərrüfatı məhsulları ilə yüklənmiş maşınlar yolsuzluqdan mənzil başına çata da bilmirdilər. İndi isə vəziyyət sürətlə dəyişir.

Hazırda 8 min nəfər əhalinin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirən Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolu tikilir. Dövlət başçısının imzaladığı sərəncamla bu yolun tikintisinə ilkin olaraq 3 milyon manat vəsait ayrılıb. Layihəni Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 6 nömrəli Yol İstismarı MMC-i icra edir. Kollektiv Qusar-Həzrə-Sudur yolunun girişi olan Cibir və Mucuq kəndləri istiqamətində 3,8 və 5,8 kilometrlik hissədə təmir və yenidənqurma işlərini başa çatdıib. Hər iki istiqamətdə yolun torpaq yatağı genişləndirilərək 12 metrə çatdırılıb. Yola ikiqat çınqıl döşənərək hamarlama və kipləşdirmə işlərindən sonra asfalt-beton döşənib. Həm Cibir, həm də Mucuq istiqamətində gərəkli yerlərdə suötürücü borular qoyulub. Eyni zamanda yolboyu qurumuş ağaclar təmizlənir, yerinə yeniləri əkilir. İdarənin istehsalat mühəndisi Şixkamal Daşdəmirov deyir ki, yolda yenidənqurma və təmir işləri nişanların, avadanlıqların, siqnal dirəklərinin quraşdırılmasından sonra başa çatacaq.

Yolun üstündə yaşayan əhalinin rahatlığını təmin edəcək magistralda işin sürətinə və keyfiyyətinə gündəlik nəzarət edilir. Kollektivin bütün üzvləri - mexanizatorlardan Əli Əliyev, Dövlət Bədəlov, Səbri Hacağayev, Qaraxan Yunisov, sürücülərdən Rizvan Abdullayev, Sərxan İsgəndərov, Alik Hacıyev, baş mühəndis Sabit Rəhimov və iş icraçısı Pərviz Əhmədov əllərindən gələnləri edirlər ki, yolun çəkilişini vaxtında və keyfiyyətlə yekunlaşdırsınlar.

Hazırda Qusar-Həzrə-Sudur avtomobil yolunun 30-39 kilometrlərində - Uqur və Böyük Muruq kəndləri ərazisində yolun profilə gətirilməsi, genişləndirilməsi, torpaq yatağının qaldırılması, kəsilməsi işləri görülür.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## Ordubadın Vənənd kəndi inşaat meydançasına çevrilib

Ordubad rayonunun Vənənd kəndində bu ilin əvvəlindən kompleks quruculuq işləri aparılır. Kənddə 3 mərtəbəli 432 şagirdlik məktəb binasının qapı və pəncərələri, döşəməsi, elektrik və rabitə xətləri, dam örtüyü yenilənib.

Kənddə uşaq musiqi məktəbi üçün yeni bina tikilir. Bina 3 mərtəbədən ibarət olacaq. İnşa olunan kənd mərkəzində isə icra nümayəndəliyi, bələdiyyə, baytarlıq, poçt, mədəniyyət evi, kitabxana, rabitə evi, polis sahə məntəqəsi üçün hər cür şərait yaradılacaq.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, əhaliyə nümunəvi ticarət, məişət və tibb xidmətləri göstərilməsi üçün kənddə müasirtipli xidmət mərkəzi və müasir ambulatoriya da inşa olunur.

## Bərdənin 9 kəndində suvarma sistemi bərpa edilib

Yaponiya hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində həyata keçirilən "Bərdə rayonunun 9 kəndində suvarma sisteminin bərpası" layihəsi başa çatıb.

Bu münasibətlə Bərdə rayonunun Qaradəmirçi kəndində keçirilən mərasimdə Yaponiyanın Azərbaycandakı səfiri Teruyuki Katori, rayon ictimaiyyətinin nümayəndələri və kənd sakinləri iştirak edib.

Mərasimdə çıxış edən səfir Teruyuki Katori ölkəsinin Azərbaycanda reallaşdırdığı layihələr barədə məlumat verib. Əminliklə bildirib ki, layihə rayonda kənd təsərrüfatının inkişafına, məhsuldarlığın artmasına töhfə verəcək.

Məlumat verilib ki, "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" insan təhlükəsizliyi ideyasına əsaslanaraq, inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafa dəstək göstərir. İnsan üçün vacib olan təhsil, səhiyyə, yaşayış mühiti kimi sahələri prioritet götürən qrant yardımı proqramı əhalinin həyat şəraitinə birbaşa təsir göstərən xırda infrastruktur layihələrini həyata keçirir. Proqram 2018-ci ilə qədər 141 ölkə və 1 bölgəni əhatə edib. Azərbaycan müstəqilliyini bərpa edəndən indiyə kimi Yaponiya hökuməti tərəfindən olunan yardımların ümumi dəyəri 1,1 milyard ABŞ dollarını ötüb.

Bərdə rayonunun 9 kəndində suvarma sisteminin bərpası layihəsinin ümumi məbləği 82 min 719 ABŞ dollarıdır. Layihə Bərdə rayonunda "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində həyata keçirilən sayca 11-cidir. Bu vaxta qədər Azərbaycanda ümumi dəyəri 20 milyon ABŞ dolları olan 248 layihə üzrə qrant müqaviləsi imzalanıb.

Diqqətə çatdırılıb ki, yeni layihənin məqsədi Bərdənin 9 kəndində suvarma sistemini bərpa etməklə, kənd təsərrüfatının inkişafına töhfə verməkdir. Layihənin icrası nəticəsində rayonun 9 kəndində 329 ailəyə məxsus 453 hektar pay və həyətyanı torpaqların suvarma suyu ilə təminatı yaxşılaşacaq.

Tədbirdə çıxış edən Bərdə Rayon İcra Hakimiyyəti başçısının müavini Vahid Qarayev həyata keçirilən layihələrə görə Yaponiya hökumətinə minnətdarlığını bildirib.

# Muğamın Xanı

**◆ Unudulmazlar**

**... Ağdamın Novruzlu kəndində, say-seçmə bəylərdən birinin evində böyük məclis qurulmuşdu. Gözəlliyi ilə göz oxşayan mülkə Qarabağın bəy-xanları, ziyalıları, şairləri, məşhur sənət adamları toplaşmışdı. Başdan-başa Qarabağın milli xörəkləri, ləzzətli təamları ilə bəzədilmiş süfrənin arxasında bəziləri şirin-şirin danışır, bəziləri nəyinsə mübahisəsini edirdi. Həmin məclisə Segah İslam gənc şəyirdi İsfəndiyarla birlikdə gəlmişdi. Məclisdə xanəndələrin ifasında muğam dəsgahları dinlənildikdən sonra Segah İslam pəncərənin önündə o dövr üçün yenilik sayılan qrammofonu görüb, məclis sahibindən evdə hansı xanəndələrin vallarının olduğunu soruşur. Məclis əhli xanəndələrin dincəldiyi müddətdə sadalanan vallar içindən Əbülhəsən Xan İqbal Azər Soltanın "Kürdü Şahnaz"ına qulaq asmaq istəyir. Ev sahibi valı səsləndirir…**



Şagirdinin vala çox həyəcanla qulaq asdığı və ara-sıra oxunanları sakitcə zümzümə etdiyi Segah İslamın gözündən qaçmır. İfa başa çatandan sonra ustad xanəndə məclisdəkilərə şəyirdini təqdim edir, onun da gözəl səsə və ifaçılıq qabiliyyətinə malik olduğunu söyləyərək üzünü gəncə tutur: "İsfəndiyar, sən də belə oxuya bilərsənmi?" İsfəndiyar "vala bir də qulaq assam, oxuyaram" deyə ürəkli cavab verir. Məclisdəkiləri maraq bürüyür və val bir də səsləndirildikdən sonra gənc xanəndə üzünü tarzənə tutaraq, "başla" işarəsi verir. Tarın, kamanın sədaları altında İsfəndiyar "Kürdü Şahnaz" muğamını ifa etməyə başlayır. Səsinin gücündən divarboyu rəflərə düzülmüş çini və şüşə qablar cingildəyir. İsfəndiyar ifasını başa vurub, qavalı dizinin üstünə qoyan kimi məclisi alqış sədaları bürüyür. Heyrətə gəlmiş qonaqların hərəsinin ağzından bir tərif eşidilir: "Maşallah, bu ki, əsl xanəndədir", "Gördün, Əbülhəsən Xanın oxumasından heç seçilmədi", "Yox əşşi, bu, Xandan da yaxşı oxudu", "Bu uşağın böyük gələcəyi var", "Əsl Xan elə budu"...

Bu tərifləri eşidən Segah İslam sərbəst məclis idarə edəcək qədər püxtələşmiş şagirdinin ilk müstəqil addımlar üçün ciddi uğur qazandığına ürəkdən sevinir. Məclisdəki qonaqlardan kimsə gəncin adını bir də soruşanda Segah İslam məclisdəkilərə üzünü tutub deyir: "Hörmətli ağalar, xanəndə və sazəndələr, Əbülhəsən xalq içindən çıxmış sadə bir rəiyyət nümayəndəsi olub. İran şahı onun sənətini yüksək qiymətləndirib, onu İran xanəndələrinin Xanı - Əbülhəsən Xan İqbal adlandırıb. Bu gənc oğlan Əbülhəsən Xanın ifasını olduğu kimi təkrarlaya bildiyi üçün qoy bu gündən o da olsun Azərbaycan xanəndələrinin Xanı, Xan Şuşinski".

Beləliklə, 1918-ci ilin yazında 17 yaşlı İsfəndiyar Aslan oğlu Cavanşir dönür olur Xan Şuşinski. Və çox keçmir o nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da bu ada layiq olduğunu, sözün əsl mənasında, muğamın xanı olduğunu sübut edir...

## Səsinin cingiltisindən rəflərə düzülmüş qablar silkələnirdi

İsfəndiyar Aslan oğlu Cavanşir 1901-ci il avqustun 20-də Şuşada Qarabağ xanlığının banisi Pənahəli xanın nəslindən olan Aslan ağa Cavanşirin ailəsində ilk övlad kimi dünyaya gəlib. Anası Bəyimxanım da Cavanşirlər sülaləsinin bir qolu olan Pənahəli xanın üçüncü oğlu Talıbxan ağanın törəməsi olub. Şuşa ətrafındakı Xoca, Ballıca və Korocaq kəndləri Aslan ağanın atası Mahmud bəyə məxsus idi. Aslan ağanın Şuşa qalasında, Bazarbaşı deyilən yerdə evi olmaqla yanaşı, Xan bağı yaxınlığındakı Ballıca kəndində böyük mülkü, qoyun sürüləri, at ilxısı, geniş otlaqları, un dəyirmanı və meyvə bağları vardı. Ermənilərin 1905-1907-ci illərdə, eləcə də 1918-ci ildə Qarabağda törətdikləri iğtişaşlar zamanı Aslan ağanın Şuşadakı evi və Ballıcadakı mülkü dəfələrlə yandırılmış, təsərrüfatı talan edilmişdi. Bu səbəbdən də sonradan müflisləşmiş Aslan ağa ailəsi ilə birlikdə Ağdama köçmək məcburiyyətində qalmışdı. Aslan ağanın ailəsində İsfəndiyardan sonra Əliyar və Zümrüd adlı övladları dünyaya gəlsə də, kiçik yaşlarında tələf olublar. Sonradan Allahyar adlı oğlu və Rüxsarə adlı qızı doğulub. İsfəndiyarın anası Bəyimxanım erkən rəhmətə getdiyindən uşaqlar xalalarının qayğısı ilə böyüyüblər.

Aslan ağa təsərrüfat işlərinə rəhbərliklə yanaşı, ov ovlamağı və hərdən peşəkar səviyyədə olmasa da, tarda çalıb zümzümə etməyi xoşlayardı. Musiqini çox sevdiyi üçün tez-tez evlərində ədəbi-musiqili məclislər təşkil edər, bu tədbirlərə Qarabağın say-seçmə ziyalıları, muğam, şeir aşiqləri, xanəndələr toplaşarmış. Qrammofon səslənər, şeir oxunar, xanəndələr muğam dəsgahı ifa edərmişlər. Balaca İsfəndiyarda musiqiyə böyük maraq elə o vaxtdan yaranır. Çox keçmədən onun bu marağı diqqət çəkir və atası ona tar alaraq məşğul olmasını tövsiyə edir. Bir müddət tar çalmağı öyrənən İsfəndiyar bu sənəti qardaşı Allahyara öyrədir. Allahyar sonradan Azərbaycanın məşhur tarzənlərindən biri kimi püxtələşərək, uzun illər qardaşı ilə çiyin-çiyinə musiqi mədəniyyətimizin inkişafına xidmət göstərir.

Muğam sədaları ilə böyüyən İsfəndiyarın ürəyində sənətə olan məhəbbət gündən-günə artmağa başlayır. Üstəlik səsi o qədər güclü imiş ki, evdə oxuya bilmirmiş. Səsinin cingiltisindən rəflərə düzülmüş qablar silkələnirmiş. Elə ona görə də Şuşanın dağlarına, Cıdır düzünə gedər, ağacların başına çıxıb orda ürəkli oxuyarmış. Oğlunun bu istedadını və həvəsini görən Aslan ağa İsfəndiyarı Segah İslam kimi tanınan xanəndə İslam Abdullayevin yanına aparıb, uşağa muğamın sirlərini öyrətməyi təvəqqe edir. Beləliklə, məktəbə getməklə yanaşı, İsfəndiyar həm də xanəndədən xüsusi dərs alır.

1918-ci ildə məclisdə Xan adını qazanandan sonra musiqiçilərdən ibarət dəstə yaradaraq el şənliklərində müstəqil iştirak etməyə başlayır. Səsinin sorağı Şuşadan çıxıb, Qarabağa, sonradan bütün Azərbaycana yayılır.



Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra 1919-cu ildə Xan Şuşinski hərbi xidmətə cəlb edilərək, qısa müddətdə Gəncədə hərbi təlim keçir. Sonradan onu tanıyan cümhuriyyətin ilk hərb naziri Xosrov bəy Sultanov Xanın öz sənəti ilə yeni yaranmış müstəqil respublikaya daha çox xeyir verə biləcəyini əsas gətirərək, vaxtaşırı hərbçilər qarşısında çıxışlar etmək şərtilə, onu hərbi xidmətdən azad edir. Xan Şuşinski bir müddət Gəncədə və ətraf bölgələrdə kütlələr qarşısında və rəsmi tədbirlərdə çıxışlar etdikdən sonra qızıl ordunun Gəncəni zəbt etməsi və 1920-ci ilin mayında sovet hakimiyyətinə qarşı baş vermiş Gəncə qiyamından sonra yenidən Qarabağa qayıdaraq, Ağdam şəhərində məskunlaşır, el şənliklərində iştirak edərək yaradıcılığını davam etdirir.

Xan Şuşinski müstəqillik dönəmində, eləcə də sovet hakimiyyətinin ilk illərində dəfələrlə millətçi erməni quldur dəstələrinin hücum və təzyiqlərinə məruz qalır, sərrast atıcılıq qabiliyyəti və silahla rəftar bacarığı, eləcə də ehtiyatlı davranışı hesabına düşmən gülləsindən qurtulur, ən qəddar qaçaq-quldur yolkəsənləri belə səsinin, sənətinin sehri ilə ram edərək özünün və yoldaşlarının həyatını xilas edir.

Üzeyir bəy Hacıbəyli 1920-ci ilin payızında Qarabağda yerli gənc ifaçıların bacarıqlarını üzə çıxarmaq məqsədilə komissiya təşkil edir. Üzeyir bəy orada xanəndəni dinlədikdən sonra səsini çox bəyənir. Bundan sonra Xan Şuşinski öz dəstəsi ilə Üzeyir Hacıbəylinin rəhbərliyi altında Bakıdan gəlmiş incəsənət xadimlərindən ibarət qrupa qoşularaq, ustad sənətkar Cabbar Qaryağdıoğlu ilə birgə bölgələri qarış-qarış dolaşıb, hərbi hissələr və kənd əməkçiləri qarşısında saysız-hesabsız konsertlər verir. Dahi Üzeyir bəy 1926-cı ildə yazdığı "Qara göz" mahnısını oxumaq üçün ilk dəfə Xan Şuşinskiyə verir və bu mahnı xanəndənin repertuarında ən sevilən mahnılardan birinə çevrilir. Üzeyir bəy dəfələrlə Xan Şuşinskini Opera və Balet Teatrında işləməyə dəvət edir. Lakin Xan razı olmur. Deyir "mən sənətkaram, muğam ifaçısıyam, aktyor kimi səhnəyə çıxa bilmərəm". Hətta xanəndəni İtaliyaya təhsil almağa da göndərmək istəyir. Lakin Xanın atası razılıq vermir, deyir "sən getsən, gəlib görəssən ki, mən ölmüşəm". Xan da atasını və kiçik bacı-qardaşlarını qoyub getmir. Çünki o vaxtlar anası Bəyimxanım ermənilər kəndlərini yandırdıqları üçün ürəyi partlayıb ölmüşdü.

## 57 yaşında ilk övladı dünyaya gəlir

Xanın tez ailə qurmasının səbəbi də məhz bununla bağlı idi. Ailə başsız qalandan sonra 18 yaşlı Xan Tovuz xanımla ailə qurur. Ər-arvad arasında heç bir anlaşılmazlıq olmasa da, ailənin bircə problemi vardı - övladları olmurdu. Ancaq övlad həsrətinə baxmayaraq, Xan yenə də öz həyat yoldaşından ayrılmır, 35 ildən artıq müddətdə ona sadiq qalır. Ta o vaxta qədər ki, yoldaşı xəstələnir və özü Xanın ikinci dəfə evlənməsini istəyir. Birinci həyat yoldaşının razılığı ilə Xan Şuşunski ikinci dəfə 56 yaşında evlənir. Yaşının çox olmağına rəğmən xoşbəxtlikdən bu izdivacdan sənətkarın 4 övladı olur. Xanın 57 yaşı olanda ilk övladı - qızı dünyaya göz açır. Sevinci yerə-göyə sığmayan sənətkar uşağa anasının adını qoyur. Onun şəninə "Ay qəşəng ceyran" mahnısını yazır.

Xan Şuşinskinin qızı Bəyimxanım Verdiyeva danışır ki, övladı olduğuna görə atası özünü çox xoşbəxt hiss edirdi. Uşaqlarının hamısı ilə xoş rəftar edir, bir dediklərini iki etmirdi: "Atam deyirdi ki, "Süsən, sünbül" mahnısını oxuyanda öz taleyinə ağlayırmış. O mahnıda belə sözlər var axı: "Ömrü başa yetirmişəm, balam hanı, yarım hanı..." Yaşlı vaxtında bizi başına yığıb deyirdi ki, "mən indi dünyanın ən xoşbəxt adamıyam. Varım da, dövlətim də bu uşaqlardı. Gör neçə il onlara həsrət qalmışam". 4-cü övladı olanda atamın 63 yaşı vardı. Amma buna baxmayaraq, çox sağlam kişi idi. Anam Suğra xanımla atam arasında 30 yaş fərq olub. Böyük yaş fərqinə baxmayaraq, çox xoşbəxt idilər. Çünki bir-birlərini başa düşür, hörmət edirdilər. 1959-cu ildə Moskvada Azərbaycan mədəniyyəti ongünlüyü keçirilirdi. Konsert televiziya vasitəsilə göstərilirdi. Atamı orda görən kimi televizora yaxınlaşıb barmağımla atamı göstərərək birinci dəfə "dədə" sözünü demişəm. O vaxtdan da mən, daha sonra isə bacı-qardaşlarım atama "dədə" deyə müraciət edirdik".

## Nəriman Nərimanov Atatürk haqda mahnını Xana oxudarmış

Xan Şuşinski ilk dəfə 1923-cü ildə Bakıya dəvət olunur, kütlələr qarşısında geniş musiqi proqramı ilə çıxışlar edir. Paytaxt sakinləri o vaxta qədər eşitmədikləri möcüzəli bir səsin şahidi olurlar. Konsertlərə tamaşa etməyə gələnlərin həddən artıq çox olması nəzərə alınaraq, asayişin keşiyinə xüsusi atlı milis dəstələri cəlb olunar, buna baxmayaraq Xana tamaşa etmək istəyənlərin konsert salonlarının qarşısında yaratdığı basırıqda hər dəfə insanlar əzilib zədələnər və qapı-pəncərələr qırılaraq yararsız hala salınarmış. 1929-cu ildə filarmoniyada keçirilən konsertində isə iynə atsaydın, yerə düşməzdi. Nəinki zalda, foyedə, hətta filarmoniyanın bağında da adam əlindən tərpənmək olmurdu. Filarmoniyanın pəncərələrini açıq qoymuşdular ki, çöldəkilər səsi eşidə bilsinlər. Xanı bir dəfə görmək üçün ağaca çıxanlar da vardı. Asayişi qorumaq üçün yolboyu atlılar düzülmüşdü.

B.Verdiyeva atası ilə bağlı maraqlı hadisələri danışır. Deyir ki, 1920-ci illərin əvvəllərində çox məşhur olan "İzmir" marşı bir çox xanəndələr kimi, Xan Şuşinski tərəfindən də tez-tez oxunarmış. Lakin sonradan sovet hökumətinin yerlərdəki məmurları tərəfindən həmin mahnının ifasına ciddi qadağa qoyulur. Digər ifaçılar kimi, Xan Şuşinski də bu mahnıya görə dəfələrlə xüsusi xidmət orqanlarının tənqidinə məruz qalır. 1924-cü ilin əvvəllərində Nəriman Nərimanov artıq Rusiyada işlədiyi vaxt Azərbaycana qısamüddətli səfərə gəlir. Xan Şuşinskini çağırtdırırlar ki, Nərimanov səni dinləmək istəyir: "Xan kiçik musiqiçi dəstəsi ilə Nərimanovun görüşünə gəlir. Bir qrup hökumət, dövlət, o cümlədən xüsusi xidmət orqanı nümayəndələri tərəfindən əhatələnmiş Nərimanov musiqiçilər, sənət adamları ilə görüşür, onların qayğıları ilə maraqlanır. Sonra üzünü Xana tutub "Ay bəri bax" mahnısını oxumağı sifariş edir. Xan Şuşinski bu mahnının köhnə inqilabçı olan Nərimanov üçün hansı xatirələrlə bağlı olduğunu Cabbar Qaryağdıoğlundan eşitmişdi. Belə ki, 1909-cu ildə Nəriman Nərimanov və Stalin sürgünə göndərilməzdən əvvəl bir müddət Bayıl həbsxanasında saxlanılırmış. Mütərəqqi fikirli insan olan Cabbar Qaryağdıoğlu da o zaman Bakıda fəaliyyət göstərən inqilabçı dərnəklərin üzvləri ilə əməkdaşlıq edər, öz maddi və mənəvi köməyini azadlıq və tərəqqi fədailərindən əsirgəməzmiş. Həbsxanada olan yoldaşları ölkədə və şəhərdə baş verən son hadisələrdən məlumatlandırmaq və inqilabçıların fəaliyyət planlarını təcridxanadakılara çatdırmaq məqsədilə Cabbar Qaryağdıoğlu musiqiçilərdən ibarət dəstəsi ilə Bayıl həbsxanasının qarşısındakı çayxanada oxuyub-çalar, həbsxanaya məlumat ötürülməsi məqamında xəbərdarlıq işarəsi kimi ucadan "Pəncərədən daş gəlir, ay bəri bax" oxuyar, ardınca da muğam üstündə qəzələrası inqilabçıların məlumatını zil səslə, aydın eşidilən tərzdə oxuyaraq, məhbuslara çatdırarmış... Xan "Ay bəri bax"ı oxuduqdan sonra Nərimanov "İzmir" marşını - "Yaşa, yaşa, yüz yaşa, Mustafa Kamal Paşa" mahnısını oxumasını istəyir. Atam danışardı ki, Nəriman Nərimanov hər dəfə Azərbaycana gələndə onu yanına çağırıb, Atatürkə həsr olunmuş bu mahnını dönə-dönə oxudarmış".

## "Xan, bunlar elə bilirlər sən boğazında mikrofon gizlətmisən"

1934-cü ildə Bakıda keçirilən dövlət tədbirinin bədii hissəsində Cabbar Qaryağdıoğlu ilə yanaşı, Xan Şuşinski də çıxış edir. Konsertin sonunda Cabbarın ifasında "Heyratı" zərb muğamı elan olunur. Cabbar xanəndələrə müraciət edib, onunla birgə ifa etmək istəyəni səhnəyə dəvət edir. Xanəndələr Cabbarla yarışmaqdan ehtiyatlanıb, boyun qaçırsalar da, Xan Şuşinski tərəddüd etmədən ustad sənətkarın təklifinə qarşılıq verir. Tamaşaçılar arasında oturan Mircəfər Bağırov da bu sənət yarışmasını diqqətlə izləməyə başlayır. Xanəndələr muğamın şöbələrini növbə ilə oxuyaraq öz məharətlərini nümayiş etdirirlər. İfanın sonuna yaxın gözlənilmədən Cabbar Qaryağdıoğlu səsini zilə çəkərək "Şikəsteyi fars" şöbəsini oxumağa başlayır və zil notda estafeti Xana ötürür. Xan da özünü itirmədən həmin yerdən ifaya davam edib, bir qədər də zil notlarda "Qazağı" şöbəsinə keçərək, şaqraq zəngulələrlə gəzişmələr edib, muğamın başlanğıc pərdəsində ayaq verir. Salonu alqış sədaları bürüyür. Cabbar Qaryağdıoğlu əlini mehribancasına Xanın kürəyinə vurub, hamının eşidəcəyi səslə ucadan "Əhsən sənə, gələcəyin xanəndəsi sənsən" deyir.

1934-cü ilin payızında Bakıda Lermontovun 120 illik yubileyi qeyd olunur. Xan Şuşinski həmin yubileydə çıxış etmək üçün dəvət olunur. Tədbirdə Azərbaycanın dövlət və hökumət rəhbərləri ilə yanaşı Rusiyadan dəvət olunmuş məşhur ədəbiyyat xadimləri də iştirak edirlər. Rusiyalı qonaqların könlü xoş olsun deyə tədbirdə Lermontovun şeirləri oxunur. Xan çıxış üçün adəti üzrə öz repertuarından bir şey ifa etməyə hazırlaşarkən tədbirin təşkilatçılarından göstəriş gəlir ki, Xan Şuşinski muğam üstə mütləq Lermontovun şeirlərindən oxumalıdır. Artıq çətin vəziyyətlərdən bir çıxış yolu tapmağa vərdiş etmiş təcrübəli xanəndə Lermontovun şeirlərindən birinin tərcüməsini cəld kağız parçasına köçürüb, qavalın içərisinə pərçimləyir və muğam üstündə Lermontovun şeirini birtəhər ifa edib, başa çatdırır. Tədbirdən sonra Mircəfər Bağırov musiqiçilərə yaxınlaşıb, razılığını bildirərkən "Xan, həmişəki kimi yaxşı oxudun, amma yaman qavalın içinə boylanırdın?" deyə zarafatla dillənir.

1943-cü ildə Moskvadan folklor sənətini təhlil edən bir qrup musiqişünas-alim heyəti Bakıya gəlir. Məşhur müğənni Bülbül Xan Şuşinskini dəvət edib, onlar üçün "Mahur hindi" muğamını oxumağı xahiş edir. Qonaqlar Xanı ardıcıl olaraq bir neçə dəfə oxutdurub, dinlədikdən sonra bu səsin gücünə heyran qaldıqlarını gizlətmədən icazə istəyib, Xanın ağzına və boğazına diqqətlə ba-



xırlar. Xan Bülbüldən soruşur ki, bunlar nə istəyir. Bülbül deyir: "Xan, bunlar elə bilirlər sən boğazında mikrofon gizlətmisən, inana bilmirlər ki, insanda bu qədər geniş diapazonlu, güclü səs ola bilər".

## Mircəfər Bağırovun əmrilə 24 saat ərzində Bakıya köçürülür

B.Verdiyeva deyir ki, atası öz yaradıcılığında Hüseyn Cavidin qəzəllərinə geniş yer ayırdığına görə, 1937-ci ildə hökumət nümayəndələrinin qəzəbinə tuş gəlir, bir il müddətinə "səsi alınaraq" kütləvi yerlərdə, el şənliklərində və rəsmi tədbirlərdə oxumasına qadağa qoyulur. Bu səbəbdən də 1938-ci ildə Moskva şəhərində keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyünün iştirakçıları siyahısından adı çıxarılır: "M.Bağırov Xan Şuşinskinin tədbirlərə qatılmamasının səbəbini soruşduqda ona "Xan tədbirdə iştirak üçün qonorar istəyib. Deyib mənim burda toylarım var" cavabı verirlər. Bu, Bağırovu çox qəzəbləndirdiyindən o, Xanın barəsində qəti cəza tədbirinə qərar verir. Bundan xəbər tutan Üzeyir bəy, Mirzə İbrahimov, Səməd Vurğun Mircəfərin qəbuluna gedib, həqiqi vəziyyəti ona izah edirlər. Bundan sonra Mircəfər Bağırov Xanın Bakıya köçürülməsi əmrini verir. Xan, qardaşı Allahyar Cavanşirlə birgə 24 saat ərzində Bakıya köçürülür. Onların hər ikisinə mənzil verilir və Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi fəaliyyətə başlayırlar. Bakıya köçəndən sonra Xan Şuşinski doğma el-obası ilə əlaqəni pozmur, vaxtaşırı Ağdamdakı evinə baş çəkməklə yanaşı, yay istirahətini bir qayda olaraq Qarabağın səfalı yaylaqlarında keçirir. 1960-cı illərin ortalarından isə Şuşa şəhərinin "Çöl qala" məhəlləsində həyət evi alaraq, sonrakı illərdə mütəmadi olaraq məzuniyyətə daim Şuşaya gedir".

Xan Şuşinski "Şuşanın dağları", "Ay gözəl", "Ölürəm, a ceyran bala", "Məndən gen gəzmə", "Al yanağında", "Qəşəng ceyran", "Qəmərim", "Bağda sarmaşıq", "Ay Dilbər", "Ay qara qız", "Bilmədin", "Dağlarda çiçək" kimi 20-dən çox mahnı və bir neçə təsnifin, eləcə də üç duet-mahnının bəstəkarı olub. Həmin mahnıların melodiyaları ilə bərabər əksəriyyətinin sözlərini də özü yazıb. Bundan əlavə "Apardı sellər Saranı", "Qaçaq Nəbi" və başqa bir neçə aşıq havası Xan tərəfindən işlənərək, müğənni səsinə uyğunlaşdırılıb. Lakin xalq yaradıcılığından, milli muğamlarımızdan bəhrələnən bir nəğməkar olduğu üçün Xan Şuşinski daim təqiblərə məruz qalırdı. Bəstələdiyi və sevə-sevə oxuduğu "Şuşanın dağları" mahnısına görə Xan dəfələrlə inzibati orqanlara çağırılaraq izahat verməli olub. "Başı dumanlı" kəlməsində nəyə eyham etdiyi, "mavi duman", "qırmızı qofta", "yaşıl tuman" sözləri ilə Azərbaycan Demokratik Respublikasının sovetlər dövründə qadağan olunmuş bayrağına işarə etməsi ilə ittiham edilərək, ondan təcili olaraq mahnının sözlərinin dəyişdirilməsi tələb olunur. Nəticədə Xan Şuşinski xüsusi senzura komissiyasını həmin mahnının yalnız bir kəlməsinin - "Şuşanın dağları başı dumanlı" əvəzinə "Şuşanın dağları deyil dumanlı" dəyişdirilməsinə razı salır. Eləcə də başqa bir ifasında Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından bir hissəni oxuyarkən "Haşa ki, könül Xosrova pabənd ola bir də" cümləsində sovet senzura nümayəndələri tərəfindən fəhlə və kəndli hökumətinin sinfi düşməni hesab edilən Şah Xosrov Pərvizin Xan Şuşinski tərəfindən təbliğ edilməsi irad tutulur. Xanəndə həmin misranı "Haşa ki, könül hüsnünə pabənd ola bir də" kimi oxumaq məcburiyyətində qalır.

## "Xan Şuşinski heç vaxt mikrofondan istifadə etməyib"

Xan Şuşinski mədəniyyət sahəsində yeganə şəxs idi ki, Vətən və xalq qarşısında təmənnasız xidmətləri, nümunəvi fəaliyyəti və böyük sənətkarlıq bacarığı nəzərə alınaraq 1943-cü ildə "Əməkdar artist" adı almadan birbaşa "Xalq artisti" adı ilə təltif edilmişdi. Sovet hakimiyyəti illərində "Şərəf nişanı", "Qırmızı əmək bayrağı" ordenləri, SSRİ Ali Sovetinin fəxri fərmanı, bir çox mükafat, fəxri fərman, medal və döş nişanlarıyla təltif olunmuşdu. Fəaliyyəti dövründə müxtəlif respublikaların incəsənət xadimlərinin iştirak etdiyi ən nüfuzlu xalq sənəti yarışmalarında iştirak edib və daim 1-ci yerə layiq görülüb.

O, ilk dəfə qadın ifaçı ilə (Şövkət Ələkbərova) birgə duet ifasının təşəbbüskarı, duet mahnıların ilk müəllifi olub. Azərbaycan müğənniləri içərisində ilk dəfə xalq çalğı alətləri orkestrinin müşayiəti ilə muğam, dəsgah ifa edən də məhz Xan Şuşinski olub. Eyni zamanda ilk xanəndə olaraq Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə Niyazinin "Rast" simfonik muğamında ayrı-ayrı parçaları yüksək ustalıqla ifa edib.

1944-cü ilin yazında Xan Şuşinski mədəniyyət və incəsənət xadimlərindən ibarət böyük heyətlə İrana səfərə gedib. Üç ay müddətində İranın 22 şəhərində geniş repertuarla çıxışlar edib, böyük tamaşaçı rəğbəti qazanıb. Səfər zamanı "Şimran" sarayında təşkil edilmiş ziyafətdə ifa etdiyi "Mirzə Hüseyn segahı" və "Qarabağ şikəstəsi"nə görə İran şahının xüsusi mükafatlarına layiq görülüb. Xan Şuşinski bir neçə aparıcı sənətkarlarla birgə təşəbbüs göstərərək İran səfərindən qazandığı mükafatları, çox qiymətli zinət əşyalarını və qızıl pul kütləsini müharibə aparan sovetlər ölkəsinin Müdafiə Fonduna təhvil verib. İran səfəri zamanı Xan Şuşinskini artıq ömrünün ixtiyar çağlarında olan Əbülhəsən Xan İqbal Azər Soltanla, eləcə də mürəkkəb tale yaşamış, İranda mühacirətdə olan məşhur Bakı xanəndəsi və neftxudası Seyid Mirbaba ilə görüşdürürlər. Əbülhəsən Xan Xan Şuşinskini dinlədikdən sonra onun həqiqətən muğamatın xanı adına layiq bir sənətkar olduğunu etiraf edir.



Xanəndənin qızı atasını çox gözəl xasiyyətli insan kimi yad edir. Deyir, uşaqla uşaq, böyüklə böyük kimi rəftar edir, heç kimin xətrinə dəymirdi. Kimsənin barəsində mənfi fikir söyləməz, laqeyd olmadığı insanlara iradlarını ayrılıqda bir kənara çəkib sakitcə bildirərdi: "Təmkinli, az danışan, ağır təbiətli, həm də zarafat sevən idi. Yaşıdları, dostları, münasib bildiyi insanlarla zarafatlaşmağı xoşlardı. Atam ərəb, Kirill, latın əlifbalarında sərbəst yazıb oxuyardı. Mütaliəyə çox böyük marağı vardı. Hafizəsi güclü olduğundan hətta ömrünün ixtiyar çağlarında belə yaddaşında minə yaxın şeir və qəzəli təhrifsiz saxlayıb, ifa edə bilirdi. Yaradıcılığında əsasən Füzulinin şeiriyyatına, eləcə də Nizaminin, Vaqifin, Zakirin, Vahidin, Cavidin, Rahimin, Vurğunun qəzəllərinə və el bayatılarına üstünlük verib, təkrarçılığın əleyhinə olub. Ömründə heç vaxt spirtli içki içməyib. Səsi qeyri-adi gücə malik olduğundan heç vaxt mikrofondan istifadə etməyib. Çox səmimi, müdrik, uzaqgörən, insan tanıyan idi atam. Hər adamla da dostluq etməzdi. Onun əsas dostları yaradıcı insanlar olub - şair, yazıçı, musiqiçi,



rəssam. Lətif Kərimov, Səməd Vurğun, Məmməd Rahim, İlyas Əfəndiyev, Süleyman Rüstəm, Cəfər Xəndan, Cəlil Məmmədquluzadə, Hüseyn Cavidlə yaxın dostluğu olub. Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Cavanşir onların qohumu idi. Atam danışırdı ki, onlar tez-tez Şuşaya gələrdilər. Xanı da götürüb gedərdilər gəzməyə. Xan oxuyar, Cəlil də feyziyab olardı. Səməd Vurğunla da birlikdə dəfələrlə ova gediblər. Şair "Azərbaycan" şeirinin bir bəndində Qarabağı Xanın səsilə tərənnüm edib. Bundan başqa, Əliağa Vahid, Məmməd Rahim, İlyas Əfəndiyev, Süleyman Rüstəm və başqaları Xanı öz əsərlərində vəsf ediblər".

## "Yaxşı ki, atam Şuşanın, Qarabağın işğalını görmədi"

Bəyimxanım Verdiyeva xatırlayır ki, həyatının son gününə qədər atasının səsi yerində olub, öz təravətini itirməyib. Sadəcə, ömrünün axırlarında şəkər xəstəliyi tutub. Dodağı tez-tez quruduğuna görə oxuya bilməyib: "Çox sağlam kişi idi. Ahıl yaşlarında belə cavan oğlan kimi at çapırdı. Yanaqları hələ də qırmızı idi. Ona görə də vəfatına inanmaq olmurdu. Bir müddət "Leçkomissiya"da müalicə də almışdı. Amma nədənsə gündən-günə arıqlayırdı. Ölümündən bir gün qabaq mənə zəng vurdu, dedi, qızım, təcili gəl Bakıya, səni görmək istəyirəm. Səsi yaxşı gəlirdi deyə inanmadım nəsə olar. Sonradan anam dedi ki, mənlə danışmaqdan ötəri özünü nə qədər ələ alıb. Mən onda Gəncədə yaşayırdım. Həyat yoldaşım "Göy göl" Ansamblının yaradıcısı Fikrət Verdiyev orada yaşayır, fəaliyyət göstərirdi. Zəngdən bir saat sonra mindik qatara. Səhər saat 6-da Bakıya çatmalıydım. Axşam 10-a 20 dəqiqə işləyəndə zəncir boyunbağım birdən-birə qırıldı, düşdü yerə. Demə, elə həmin vaxt atam rəhmətə gedib. Gəlib çata bilmədim. Buna görə hələ də özümü bağışlaya bilmirəm. Çox görmək istəyirdi məni. Nə sözü vardısa, bilmirəm. Bacım danışır ki, təsadüfdən həmin vaxt efirdə "Göy göl" ansamblının konserti göstərilirdi. Atam deyib ki, başımı qaldırın, heç olmasa Fikrəti görüm. Bir az baxıb, "nə qəşəng çalırlar" deyib, sonra da başını yavaşca yastığa qoyub. 10 dəqiqə sonra keçinib. 1979-cu il martın 18-də, 78 yaşında... Vidalaşma mərasimi filarmoniyada keçirilirdi. Səid Rüstəmov göz yaşları axıdırdı. Habil Əliyevin kamanı atamın mənə bəstələdiyi "Ay qəşəng ceyran" mahnısını çalaraq, elə bil mənim dilimlə həzin-həzin ağlayırdı. Küçələr insan axını ilə dolu idi... Hərdən fikirləşirəm, yaxşı ki, atam Şuşanın, Qarabağın işğal olunmasını görmədi. Buna əsla dözə bilməzdi, ürəyi partlardı".

## "Çox istərdik Xan Şuşinskinin ev-muzeyi yaradılsın"

1971-ci ildə filarmoniyada Xan Şuşinskinin 70 illik yubileyi qeyd olunurdu. Tədbirin sonunda Xan yetirmələri Sara Qədimova və Yaqub Məmmədovla birgə "Qarabağ şikəstəsi" ifa edir. İfa bitəndən sonra üzünü gənc xanəndələrə tutub vəsiyyətini edir: "Atam çıxışında belə bir fikir səsləndirdi: "Mən muğamı ulu ustadlardan öyrənə-öyrənə, illərin çətin sınağından min bir əziyyətlə keçirərək, yad nəfəslərdən qoruyaraq gənc nəsillərə, bugünümüzə gətirib çıxardım. Sizdən də bir təvəqqem var, bu ərməğanı qoruyun, gələcək nəsillərə olduğu kimi çatdırın". Şəxsən mən ailə üzvlərim adından onu deyə bilərəm ki, ruhun şad olsun, ata! Bu gün Azərbaycan xalqının mənəvi sərvəti olan muğamımızın beşiyi başında Mehriban Əliyeva kimi bir xanım durur. Ona görə də muğam heç vaxt ölməyəcək, nəsillərdən nəsillərə ötürüləcək".

Xan Şuşinskinin qızı qeyd edir ki, 2001-ci ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə ustad sənətkarın 100, 2011-ci ildə isə ölkə başçısı İlham Əliyevin sərəncamı ilə 110 illik yubileyləri dövlət səviyyəsində qeyd olunub. 2011-ci ildə B.Verdiyeva həm də Xan Şuşinski Fondunu yaradıb. Fondun məqsədi Xan Şuşinskinin zəngin irsini gənc nəsillərə çatdırmaq, Azərbaycan mədəniyyətinə xidmət etmək, muğamlarımızı, Qarabağ həqiqətlərini dünyaya tanıtmaqdır: "Fond bu illər ərzində müxtəlif beynəlxalq layihələr həyata keçirib. Təəssüf ki, fəaliyyət göstərməsi üçün məkan yoxdu. Üstəlik, bu vaxta qədər Xan Şuşinskinin ev-muzeyi də yaradılmayıb. 2021-ci ildə atamın 120 illik yubileyi olacaq. Çox istərdik ki, yubiley ərəfəsində Xan Şuşinskinin ev-muzeyi və adını daşıyan fondun fəaliyyəti üçün yer ayrılsın.

*Bir də Xan Şuşinski küçəsində park var. Orda yaşayan əhali həmin parkı Xan Şuşinski parkı adlandırırlar. Arzu edirik ki, ora rəsmi şəkildə Xan Şuşinskinin adı verilsin və heykəli ucaldılsın. Hesab edirəm sovetin xan, bəy adına qadağa qoyduğu dövrdə Xan adını qazanaraq 50 ildən artıq müddətdə həm sənətinin, həm də şəxsiyyətinin xanı olaraq mədəniyyətimizə xidmət edən, Şərqin ən böyük sənətkarlarından olan Xan Şuşinski buna layiqdir".*

***Xəyalə MURADLI, "Azərbaycan"***

# Azərbaycan ipəyi qədim şöhrətini özünə qaytarır











*Əvvəli 1-ci səh.*

Burada söhbət ipəkçiliyin inkişafına təkan verə bilən bütün elmlərin birləşərək yeni ideyaları ortaya qoymasından söhbət gedir. Müasir dünya nə qədər açıq olsa da, gizli rəqabət, böyük bazarlara nəzarət müəyyən çətinliklər yaradır. Lakin güclülər, məqsədə sarı can atanlar üçün maneələrin dəf edilməsi heç nədir.

Dünyada ipək istehsalı müəyyən problemlərin olmasına baxmayaraq, ən gəlirli sahələrdən biri kimi qalmaqdadır. İpək nə qədər bahalı olsa da, kifayət qədər alıcıları və pərəstişkarları olan məhsuldur. Bu gün ən böyük ipək istehsalçıları Çin və Hindistan sayılır. İllik istehsal gücləri müvafiq olaraq 146 min ton və 28,7 min tondur. Onların arxasınca Özbəkistan, Braziliya və Yaponiya gəlir. Barama və xam ipək istehsalı ilə həmçinin Cənubi Koreya, Tailand, Vyetnam, Şimali Koreya, İran, Türkiyə də məşğuldur.

Artıq Azərbaycanın da güclü istehsalçılardan birinə çevrilməsi üçün ən ciddi addımlar atılır. Dünyanın ən böyük ipək istehlakçıları kimi ABŞ, İtaliya, Yaponiya, Hindistan, Fransa, Çin, Böyük Britaniya, İsveçrə, Almaniya, Cənubi Koreyanın adı çəkilir. İpək istehsalı dünya tekstil bazarının cəmi 0,2 faizini təşkil etsə də, ipəkçilik ən gəlirli sahələrdən biri kimi dünyanın 60-dan çox ölkəsində yayılmışdır. İllik istehsal olunan ipək parçalar isə milyard kvadratmetrlərlə ölçülür. Dünyanın ən məşhur tekstil fabrikləri yüzlərlə adda ipək parçalar istehsal edir. Zahirən mürəkkəb olan belə bazarda yer tutmaq çətin görünə bilər. Amma o da aydındır ki, ümumiyyətlə, asan başa gələn heç nə yoxdur.

Amma Azərbaycanın ipəklə bağlı maraqlı tarixçəsi var. Onu nəzərdən keçirəndə həm müasir tekstil bazarında yerimiz, həm də bu qədim sənətin bərpa yolları aydın görünür. Ölkəmizin ərazisində baramaçılığın tarixinə dair ilk faktlar V əsrə aiddir, XII əsrdən isə Azərbaycan ipəyi böyük İpək yolu ilə Avropa və Asiya ölkələrinə ayaq açır. Artıq XVI-XVII əsrlərdə Şirvan ipək istehsalına görə Yaxın Şərqdə üstünlük qazanır, XVII əsrin 30-cu illərində Azərbaycana səfər etmiş alman səyyahı və alimi Adam Oleari burada hər il 10-20 min tay xammalın toplandığını yazırdı. Beləliklə, hər il Şirvanda 16,5 min pud, Qarabağda isə 11 min puda qədər xammal istehsal olunurdu.

XIX əsrin əvvəllərində Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra sosial-iqtisadi vəziyyət dəyişir və tədricən 50 ilin ərzində ipəkçilikdə tənəzzül baş verir. Buna əsas səbəb Rusiyada kapitalizmin və o cümlədən tekstil sənayesinin inkişafı ilə bağlı ucuz parçaların bahalı ipəyi tədricən sıxışdırması olur. Amma buna baxmayaraq, bir sıra şərbaflıq mərkəzlərində ipək karxanaları ənənə gücü hesabına fəaliyyətlərini bir müddət davam etdirirdilər.

Tənəzzül baş verənədək XIX əsrdə Şamaxı şəhəri və onun ətraf kəndləri (Basqal, Mücü və b.) yenə də karxana toxuculuğunun, xüsusilə ipək parça istehsalının başlıca mərkəzi olaraq qalırdı. Belə bir faktı xatırlatmaq kifayətdir ki, 1843-cü ildə təkcə Şamaxı şəhərində 220 şərbaf karxanası işləyirdi. Amma ondan bir qədər əvvəl XIX əsrin 30-cu illərində Köhnə Şamaxıda ipək parça toxuyan 650 dəzgah, Şirvanın başlıca şərbaf kəndləri sayılan Əlvənd, Zərdab, Ağsu və Basqalda 50 ipəktoxuma dəzgahı fəaliyyətdə idi. Bu dəzgahlarda ənənəvi ipək parça növləri olan *darayı, tafta, mov, ipək örtük, örpək, kəlağayı, zolaqlı çadra, cecim* və digər ipək parçalar toxunurdu.

Şamaxı karxanalarının ipək malları keçmişdə o qədər böyük şan-şöhrət qazanmışdı ki, hətta İran parçaları arasında onlar ən yüksək keyfiyyətli ipək məmulatı hesab olunurdu.

Bu gün İtaliyada toxunan 1,5 kvadratmetrlik ipək parçanın çəkisi 30 qramdırsa, Şamaxıda 30 misqallıq xam ipəkdən hər birinin uzunluğu 7 arşın olan 11 ədəd darayı toxunurdu. 38 misqal xam ipəkdən hər bir tikəsinin uzunu 7 arşın olan 26 ədəd böyük ölçülü mov, 30 misqal ipəkdən yenə 30 ədəd orta ölçülü mov toxumaq olurdu. Bu o deməkdir ki, biz hələ iki yüz il əvvəl italyanlardan daha zərif parçalar toxuya bilirdik. Mənbələrdə göstərilir ki, 54 misqal xalis ipək telindən hər birinin uzunu 2,25 arşın, eni 1,75 arşın olan 34 ədəd kəlağayı hasilə gəlirdi. İnanmaq çətindir ki, 34 kəlağayının çəkisi cəmi 54 qram idi. Hər halda bu, italyanların işi deyil.

Şamaxı karxanalarında toxunan ipək parçalar, xüsusilə darayı və tafta yerli bazarlarda satılmaqdan başqa, Moskva, Həştərxan, Tiflis, Bakı, Quba, Dərbənd, Şəki, Şuşa şəhərlərinə göndərilir, kəlağayı və çarşab isə bütün bunlardan əlavə, həm də Türkiyə və İrana ixrac olunurdu.

İpək parça istehsalı Azərbaycanın digər şəhərlərində də davam etdirilirdi. XIX əsrin 30-cu illərində təkcə Şuşa şəhərində 132 toxucu dəzgahı olan 42 şərbaf karxanası fəaliyyət göstərirdi. 1829-cu ildə həmin karxanalarda 7200 ədəd müxtəlif növ ipək parça, 740 ədəd kəlağayı, 6100 ədəd kəmsənfə toxunmuşdur.

Azərbaycanın ənənəvi ipək parça toxuculuğunda kəskin tənəzzül XIX əsrin 90-cı illərinin ortalarında başlamışdır. Bakı qubernatorunun 1882-ci ilə dair hesabatında bildirilirdi ki, əvvəllər külli miqdarda istehsal olunan ipək parçalar demək olar ki, daha hazırlanmır və xaricə ixrac olunmur, yaxud çox məhdud miqdarda göndərilir. S.İ.Qulişambarov Azərbaycanın ənənəvi ipək parça istehsalının bu dövrkü tənəzzülünün əsas səbəbini Moskvanın fabrik mallarının, xüsusilə də Asiya məzmunlu nəqşlərə malik ucuz parçalarının burada peyda olmasında görürdü. Moskvada ipək parçaların idxalı nəticəsində yerli parçalar o dərəcədə qiymətdən düşdü ki, bu karxanaların nə üçün hələ də işləməsi təəccüb doğurur. Bir zamanlar Azərbaycana şan-şöhrət qazandıran ənənəvi ipək parçanın acınacaqlı taleyindən H.B.Zərdabi ürək ağrısı ilə yazırdı ki, Şirvan xanlarının keçmiş paytaxtı Şamaxı şəhəri həmişə ipək toxuculuğunun mərkəzi olmuşdur. Şamaxılılar, sözün əsl mənasında, elə beləcə, kəndlərdə olduğu kimi ipək toxumaqla məşğul olan adi kustarlar deyildilər, onlar yalnız bu sənətlə yaşayan peşəkar toxuculardır. Ona görə də fabrikin yerli ipək toxuculuğuna mənfi təsiri kəndlərdə və Şamaxı şəhərində eyni deyildi. Kənd kustarları ipək toxuma fəaliyyətlərini tərk edib, kənd təsərrüfatı ilə məşğul olmağa başladıqları halda, şamaxılılar ucuz fabrik məhsulları tərəfindən sıxışdırılan mov və qanovuz istehsalını dayandırmış, bunun əvəzində yorğanüzü, örpək, şərf və digər məmulatlar istehsal etməyə başlamışlar. Bir sözlə, şamaxılılar fabrikə qarşı müharibə elan etmişlər, bu, onlar üçün həyati məsələ olduğundan həmin mübarizəni aparmağa məcbur olmuşlar.

Azərbaycanda ipəkçiliyin inkişafı sovet hakimiyyəti illərində gücləndi. Artıq ötən əsrin 70-ci illərində respublikamızda ildə 5-6 min ton yaş barama və 350-400 ton xam ipək istehsal edilir, on milyonlarla kvadratmetr müxtəlif çeşidli ipək parça toxunurdu. Kümçülərin sayı 150 mini, ipək sənayesində çalışanların sayı 14 mini ötürdü. “Şəki-İpək” kombinatında 7 min nəfərə yaxın daimi işçi çalışırdı. Azərbaycan barama istehsalına görə keçmiş SSRİ-də Özbəkistandan sonra ikinci yerdə olsa da, ipəyin keyfiyyətində birinci idi. Şəki keçmiş ittifaqın 75 müəssisəsinə ipək parça, 84 müəssisəsinə isə ipək sap göndərirdi. Həmçinin Azərbaycanın ipək parçaları Yaponiya, İsveçrə, İtaliya və digər xarici ölkələrə ixrac olunurdu.

Ölkədə Elmi Tədqiqat İpəkçilik İnstitutu, Qax və Gəncə damazlıq ipəkçilik stansiyaları, 7 barama toxumu zavodu, 30-dək rayon barama qurutmaxanası, 80-ə yaxın barama tədarükü və ilkin emalı məntəqələri, 4 tinglik təsərrüfatı, 31 ipəkçilik idarəsi, Ordubad baramaaçma fabriki, Qarabağ və Şəki ipək kombinatları fəaliyyət göstərirdi. Amma 1992-ci ildən 2015-ci ilədək ölkədə barama istehsalı 5200 tondan cəmi 246 kiloqrama düşdü. Elə il də oldu ki, istehsal edilən baramanın çəkisi 100 kiloqrama da çatmadı.

Prezident İlham Əliyev tərəfindən 2016-cı ildən ipəkçiliyin müasir infrastrukturunun yaradılmasına qərar verildi. “Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında” və “İpəkçiliyin və fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” sərəncamlar imzalandı. Bir il sonra “Azərbaycan Respublikasında ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” və “İpəkçiliyin inkişafına dövlət dəstəyinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında” sərəncamlarına uyğun olaraq Damazlıq İpəkçilik Stansiyasının bərpası, əlavə istehsal sahələrinin yaradılması və müasir avadanlıqlarla təchiz olunması, çəkilliklərin salınması üçün maliyyə vəsaiti ayrıldı. Kümçülərə təhvil verdikləri baramanın hər kiloqramına görə 5 manat subsidiya verildi.

Nəticədə 2016-cı ildə 70,7 ton, 2017-ci ildə isə 245 ton və ya 2016-cı ilə nisbətən 3,5 dəfə çox yaş barama məhsulu istehsal edildi. 2017-ci il noyabrın 27-də təsdiqlənən “Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”nda yaş barama istehsalı həcminin 6 min tona çatdırılması nəzərdə tutuldu. Bu sənəddə ipəkçiliyin inkişafı üçün peşə-ixtisas və ali təhsil müəssisələrində baramaçılıq və ipəkçilik sahəsində ixtisaslı kadr hazırlığının təşkili, qəbul planının əmək bazarının tələblərinə uyğunlaşdırılması; baramaçılıq və ipəkçilik sahəsində qabaqcıl təcrübənin, yeni üsul və texnologiyaların öyrənilməsi və tətbiqi; kümçüləri sənaye tut ipəkqurdu toxumu ilə təmin edəcək toxumçuluq (qren) zavodlarının yaradılması, ipəkçilik məhsulları istehsalının genişləndirilməsi və barama istehsalı və emalı sahəsində innovativ layihələrin dəstəklənməsi nəzərdə tutulur. Barama istehsalı və emalına yerli və xarici investisiyaların cəlb edilməsi, məşhur ipək brendləri olan istehsalçılarla əməkdaşlıq və dövlətin maliyyə dəstəyi və Azərbaycan Prezidentinin islahatçı lider keyfiyyətləri ipəkçiliyin nikbin perspektivlərini əlçatan edir.

***Bahadur İMANQULİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# Könüllülər üçün “Yay məktəbi” təşkil edilib






Dünən Mənəvi Dəyərlərin Təbliği Fondunun könüllüləri üçün Qusar rayonunda “Yay məktəbi” təşkil edilib. Beş günlük layihəyə Azərbaycanın müxtəlif bölgələrindən olan gənclərdən ibarət 100-ə yaxın könüllü cəlb olunub.

Açılış mərasimində çıxış edən fondun İcraçı direktoru, ilahiyyat üzrə fəlsəfə doktoru Mehman İsmayılov bildirib ki, tədbirin təşkil edilməsində əsas məqsəd milli-mənəvi dəyərlərimizin inkişafında, maddi-mədəni irsimizin qorunmasında, həmçinin tarixən formalaşmış dəyərlərimizin gələcək nəsillərə ötürülməsində könüllülərin rolunu artırmaqdır.

Fondun təşkilatçılığı ilə iyul ayında Azərbaycanda fəaliyyət göstərən müxtəlif universitetlərin tələbələri üçün İsmayıllı rayonunda beş günlük “Yay məktəbi” təşkil edilib. Yay düşərgəsində fondun müraciəti əsasında 7 universitetin tələbələri, o cümlədən şəhid ailələrindən olan tələbələr iştirak edib.

Bildirilib ki, Mənəvi Dəyərlərin Təbliği Fondunun əsas missiyası Azərbaycan Respublikasında dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunmasına və inkişafına, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanmasına və həyata keçirilməsinə, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə, habelə bu sahədə sosial layihələrin reallaşdırılmasına dövlət dəstəyini təmin etməkdir.

Yay düşərgəsində iştirak edən könüllülər Qusarda Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, Şəhidlər xiyabanı, Milli Qəhrəman Çingiz Qurbanovun məzarı, “Şahdağ” Turizm Mərkəzi, Həzrə kəndindəki Şeyx Cüneyd türbəsi, həmçinin Qubada dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı qəsəbə, Quba Soyqırımı Memorial Kompleksi və digər məkanları ziyarət edəcəklər.

“Yay məktəbi” çərçivəsində könüllülər “Mənəvi dəyərlərin təbliği və könüllülük fəaliyyəti” mövzusunda məruzə dinləyəcək, intellektual, milli oyunların iştirakçısı olacaqlar.

Qeyd edək ki, “Yay məktəbi”nə avqustun 23-də yekun vurulacaq.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Kiçik sahibkarın böyük dəstəkçisi

*Əvvəli 1-ci səh.*

Belə ki, bu dövrdə 5 KOB dostu (Abşeron, Sumqayıt, Şəki, Qəbələ və Füzulidə) fəaliyyətə başlayıb ki, bununla da ölkə üzrə KOB dostlarının sayı 15-ə çatdırılıb. Sahibkarlara bütün dövlət-biznes (“G2B”) və zəruri biznes-biznes (“B2B”) xidmətlərin vahid məkanda göstərilməsi məqsədilə hazırda Bakı şəhərində yaradılmaqda olan ilk kiçik və orta biznes evinin - “KOB Evi”nin təşkili istiqamətində tədbirlər davam etdirilir.

“KOB Evi”ndə sahibkarlıq subyektləri öz bizneslərinin planlamasından başlayaraq biznesin idarə edilməsinin bütün mərhələlərində ehtiyac duyulan xidmətləri əldə edə biləcəklər. Burada biznesi planla, biznesə başla, biznesi işlət, biznesi inkişaf etdir kimi biznes prosesləri üzrə 30-dan çox dövlət qurumunun 100-dən artıq “G2B” və özəl qurumların “B2B” xidmətləri əlaqəli şəkildə təşkil olunacaq. “KOB Evi”ndə bank, sığorta, logistika, notariat, dizayn, çap, informasiya texnologiyaları, məsləhət xidmətləri və sahibkarların biznes fəaliyyəti çərçivəsində ehtiyac duyduğu digər xidmətlər təklif olunacaq, xidməti ofislər, görüş otaqları və konfrans zalları fəaliyyət göstərəcək.

Eyni zamanda elektron formada vahid platforma üzərindən xidmətlərin göstərilməsini təmin edəcək “e-KOB evi” portalının yaradılması istiqamətində də müvafiq tədbirlər görülür. “e-KOB evi” portalı KOB-lar üçün dəstək mexanizmlərini vahid elektron platforma üzərindən “nonstop shop” rejimində təmin edəcək.

KOBİA-nın təşkilatçılığı ilə mikro, kiçik və orta sahibkarların maarifləndirilməsi üçün Bakıda və ölkə regionlarında təlim, seminar və treninqlər keçirilir. Son 6 ayda vergi, gömrük, qida təhlükəsizliyi, kommunal xidmətlərə qoşulmaq və maliyyə resurslarına çıxış imkanlarına dair təşkil olunmuş onlayn maarifləndirmə tədbirlərindən 1500-dən çox sahibkar yararlanıb. Agentlik tərəfindən KOB-ların müxtəlif tədbirlərdə iştirakına, məhsul və xidmətlərini tanıtmasına və satışına, işgüzar əlaqələrinin genişləndirilməsinə dəstək göstərilməsi məqsədilə Bakıda və ölkənin regionlarında təşkil olunmuş 5 böyük sərgi və festivalda mikro və kiçik sahibkarların iştirakı təmin edilib.

Bu ilin 6 ayında agentlik tərəfindən həyata keçirilən mühüm layihələrdən biri də Azərbaycan və Türkiyə hökuməti tərəfindən Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində yaradılmış arıçılıq təsərrüfatlarıdır. Burada istehsal edilən məhsulların emalı və qablaşdırılması üçün KOBİA-nın sifarişi ilə mobil emalatxana və kənd məhsullarının satışı üçün mobil satış məntəqəsi istifadəyə verilib. Həmçinin mikro, kiçik və orta sahibkarlar üçün bir sıra yeni dəstəkləri və xidmətləri nəzərdə tutan müxtəlif hüquqi sənədlər təsdiq olunub. KOBİA-nın təşkilatçılığı ilə “Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı” çərçivəsində 35 sahibkar və menecer Almaniyada ixtisasartırma kursu keçib. Bununla da, proqram çərçivəsində Almaniyada təlim və qabaqcıl müəssisələrdə təcrübə keçmiş sahibkar və menecerlərin sayı 419-a çatıb.

Onu da qeyd edək ki, Prezidentin 29 may 2019-cu il tarixli fərmanı ilə təsdiq olunmuş mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsinə dair qaydalara əsasən dəstək tədbirlərinin təşkili və dəstək məbləğinin ödənilməsi KOBİA tərəfindən həyata keçiriləcək. Həmçinin “KOB klaster şirkəti”nin meyarları”, KOBİA-nın strukturuna daxil olan Dövlət-Özəl Tərəfdaşlığı Mərkəzinin və Kiçik və orta biznesin inkişafı mərkəzlərinin əsasnamələri təsdiq edilib. Hazırda bu sahədə KOBİA tərəfindən müvafiq tədbirlər görülür.

Sahibkarlara dəstək məqsədilə gənc mütəxəssislərin və tələbələrin sahibkarlığa könüllü olaraq cəlb edilməsinin təşviqi məsələsinə də xüsusi diqqət yetirilir. Hazırda 30 gənc agentlikdə və ölkənin 14 şəhər və rayonunda fəaliyyət göstərən “KOB Dostu” şəbəkəsində könüllü olaraq fəaliyyət göstərir. Ümumilikdə 50-dən çox gənc bilik və bacarıqlarının, dünyagörüşünün artırılması, peşəkar əmək fəaliyyətinə başlayanadək əmək vərdişlərinin aşılanması məqsədilə həyata keçirilən “KOB Könüllüləri Proqramı” çərçivəsində agentlikdə könüllü kimi çalışır.

Göründüyü kimi, qısa müddətdə ölkədə 15 “KOB Dostu” yaradılıb. Bu mərkəzlər mövcud dövlət dəstəyi mexanizmləri və agentliyin göstərdiyi dəstək tədbirləri çərçivəsində sahibkarlara xidmət göstərir. Agentlik qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə yeni idarəetmə modelləri tətbiq etməkdədir.

Agentliyin məqsədi KOB-ların fəaliyyətinin tənzimlənməsində iştirak etmək, bu sahədə beynəlxalq təcrübədə geniş tətbiq olunan və müasir tələblərə cavab verən çevik idarəetmə sisteminin və səmərəli əlaqələndirmə mexanizminin tətbiqi yolu ilə KOB subyektlərinin ölkə iqtisadiyyatında rolunu möhkəmləndirmək, xüsusi çəkisini və rəqabət qabiliyyətini artırmaq, regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaratmaq, bu sahəyə yerli və xarici investisiyaların cəlb edilməsinə nail olmaqdır.

Azərbaycanda davamlı iqtisadi inkişafın təmin edilməsi, kiçik və orta biznesin iqtisadiyyatda rolunun artırılması Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyasında əsas prioritetlərdəndir. Yeni yaradılmış KOBİA isə kiçik və orta biznesin inkişafı istiqamətində qarşısına qoyulan vəzifənin, tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışır.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Paşinyan Aprel döyüşləri iştirakçılarına sahib çıxmır

*Əvvəli 1-ci səh.*

Həmin mədənin istismarı ilə bağlı məlumatların qəsdən gizlədilməsinə görə yaradılan istintaq qrupunun rəhbəri Yuriy İvanyan jurnalistlərlə görüşü zamanı mədənin Cermux mineral sularına və ümumiyyətlə, ətraf mühitə hər hansı zərərli təsirinin aşkar olunmadığını bildirmişdi. Mitinq iştirakçıları isə ekspertizanın ötəri təşkil olunduğunu, mədənin fəaliyyəti nəticəsində Cermux sakinləri və ətraf mühit üçün fəlakətə səbəb olacaq hadisələrin baş verəcəyini düşünürlər.

Ekoloq Anna Şahnazaryan bildirib ki, ekspertizanın yekunlarına dair sənədlər düzgün tərtib olunmayıb və qızıl yataqlarının işlənməsinə icazə saxta məlumatlar əsasında verilib. O, müstəqil ekspertlər tərəfindən yeni tədqiqatlar aparılması tələbini irəli sürüb. Polis hökumət binasına zorla daxil olmaq istəyən aksiya iştirakçılarının qarşısını alıb və bildirib ki, bu ərazi xüsusi mühafizə olunan obyektdir. Qanun keşikçiləri ilə etirazçılar arasında qarşıdurma davam edib.

Hadisələrin bu səpkidə getdiyi bir vaxtda işğalçı ölkənin hərbisində də vəziyyətin kifayət qədər acınacaqlı olduğu bildirilir. Bu günlərdə sosial şəbəkələrdə daha bir erməni döyüşçünün düçar olduğu acınacaqlı vəziyyətlə bağlı paylaşmalar yayılıb. Belə ki, dövlət Aprel döyüşləri iştirakçısı Hayk Sexilyanın xaricdə müalicə olunması haqqında müraciətini rədd edib.

Vurğulayaq ki, Ermənistanda Aprel döyüşlərində xəsarət alanlara da münasibət fərqlidir. Azərbaycanda bu qəbildən olan insanlara yüksək ehtiram olduğu halda, Ermənistanda bunun tamam əksidir. 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan əsgərindən layiqli cavabını alan erməni döyüşçüləri hələ də dövlətdən yardım ala bilməmələrindən gileylənirlər. Üstündən uzun müddət keçməsinə baxmayaraq, Aprel döyüşlərinin iştirakçısı olan erməni hərbçilərinin üzləşdikləri çətinliklər və problemlərlə bağlı mütəmadi olaraq mətbuatda məlumatlar yayılır. Faktlar yetərincədir.

H.Sexilyan qeyd edib ki, ötən il qəlpə hələ 1 sm onurğa beynindən uzaq olarkən, həkimlər müdaxilə etməkdən çəkinərək İsveçrəyə getməyini məsləhət görüblər. Bildirib ki, artıq iki aydır bu məsələ ilə Paşinyanın müşaviri məşğul olsa da, ortada heç nə yoxdur: “Səhiyyə Nazirliyi xaricdə müalicə olunmağımın rədd edilməsini, Almaniyadan daxil olan cavab məktubunda mənim 100 faiz addımlaya biləcəyimə zəmanət verilməməsi ilə əsaslandırır. Nazirliyin bu cür səbəb göstərməsini əsassız hesab edirəm. İstənilən həkim yanına gedək, adi angina əməliyyatına zərurət olduğunu desək, kim 100 faizlik zəmanət verəcək. Tibb dünyasında, istisnasız olaraq, zəmanət yoxdur və onlar da bunu istəyirlər. Problemlə bağlı mətbuatda məsələ qaldırıldıqdan sonra baş nazirin müşaviri zəng edərək deyib ki, son 1 ay yarım ərzində məsələ ilə məşğul olub, sənədlər bu və ya digər mərhələdədir. Dostlarım tərəfindən açılmış hesabda hazırda 8619 ABŞ dolları vəsait toplanıb, cərrahiyyə əməliyyatının dəyəri isə 35 000 avrodur”.

Hazırda Aprel döyüşlərinin verdiyi ağır nəticələrlə bağlı işğalçı ölkənin mətbuatında və sosial şəbəkələrdə müxtəlif yazılar, şərhlər dərc edilir. Ermənistanda bunun qarşısını almağa nə qədər çalışsalar da, yenə də mütəmadi olaraq Aprel döyüşlərində həlak olan hərbçilərin ailə üzvlərinin, eləcə də yaralananların üzləşdikləri acınacaqlı durum və haqsızlıqlarla bağlı ifşaedici məlumatlar yayılmaqdadır.

Bütün bunlar Ermənistanda hökm sürən kriminal rejimin iç üzünü açmağa və ordu ilə bağlı ölkədəki saxtakarlıqları ifşa etməyə, həqiqəti ictimaiyyətə çatdırmağa yetərlidir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

## Azərbaycan ilə Gürcüstan arasında Dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə dövlət komissiyalarının ekspertlərinin işçi görüşü olub

Avqustun 19-da Azərbaycan Respublikası ilə Gürcüstan arasında Dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə dövlət komissiyalarının ekspertlərinin işçi görüşü keçirilib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər delimitasiya prosesinin gedişatını müzakirə edib və razılaşdırılmamış sahələrlə bağlı öz mövqelərini ifadə ediblər. Görüləcək sahə işləri, razılaşdırılmamış sahələrdə birgə ölçmə işlərinin aparılması və həmin yerlərə baxış keçirilməsi nəzərdə tutulub.

Avqustun 19-23-də ekspertlər ayrı-ayrı sahələrə birgə baxış keçirəcəklər və gələcək mərhələdə qalan digər razılaşdırılmamış sahələrə də baxış keçirilməsi planlaşdırılır.

## *Müdafiə Nazirliyi:* "Ordumuz düşmənin istənilən fəaliyyətini müxtəlif kalibrli silahların nişangahı altında saxlayır"

Azərbaycanın Müdafiə Nazirliyi Ermənistan mətbuatının yaydığı xəbərə münasibət bildirib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təbliğat məqsədilə yayılan bu xəbərin heç bir əsası yoxdur: "Tam fərqli olaraq Azərbaycan Ordusunun bölmələri cəbhənin bütün istiqamətlərində düşmənin istənilən fəaliyyətini müxtəlif kalibrli silahların nişangahı altında saxlayır, vizual və xüsusi texniki müşahidə vasitələri ilə izləyir, eləcə də onun istənilən hərəkətinin qarşısını hər an almağa hazırdır. Bu kimi xəbərlər gülüş doğurur. Biz bu cür məlumatlara, onları yayanlara və ələlxüsus inananlara təəssüf hissi ilə yanaşırıq".

Qeyd edək ki, Ermənistan mətbuatı guya aparılan mühəndis istehkam tədbirləri nəticəsində mövqelərini irəli çəkmələri barədə məlumat yayıb.

## "Azərsu" ASC-nin sədri Qazaxda vətəndaşları qəbul edib

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov Qazax şəhərində Qazax və Ağstafa rayonlarından olan sakinləri qəbul edib.

ASC-dən AZƏRTAC-a bildirilib ki, qəbulda Qazax və Ağstafa rayonlarından olan 36 vətəndaşın müraciət və şikayətlərinə baxılıb. Müraciətlər əsasən içməli su təchizatı və kanalizasiya, içməli sudan əziyyət çəkən kəndlərin su təchizatının yaxşılaşdırılması, işə qəbul və digər məsələlərlə bağlı olub. Hər bir vətəndaşın müraciətini dinləyən "Azərsu" ASC-nin sədri şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 25 aprel və 08 may 2019-cu il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elanlar üzrə keçirilən 17 LOT-dan ibarət açıq tenderin nəticələrinə əsasən **LOT 1:** Dəftərxana ləvazimatlarının satın alınmasında "A4 Plaza" MMC, **LOT 3:** Ümumi havalandırma qurğuları (AHU və Fan coil) üçün sərfiyyat mallarının satın alınmasında "Kartes" MMC, **LOT 7:** Yanğınsöndürmə qurğularına (FM 200) texniki xidmətin satın alınmasında "IT Solutions" MMC, **LOT 9:** Kəsintisiz güc mənbələrinə (UPS) texniki xidmətin satın alınmasında "Climaservice AZ" MMC və **LOT 16:** Qazanlara (Boiler) texniki xidmətin satın alınmasında isə "ASC Co" MMC qalib olmuşdur.

Qalib şirkətlərlə 16 avqust 2019-cu ildə hər bir LOT üzrə ayrıca müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC metro vaqonlarının maşinist kabinəsi üçün kondisionerin və müxtəlif növ kondisioner süzgəclərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1. Metro vaqonlarının maşinist kabinəsi üçün kondisionerin və müxtəlif növ kondisioner süzgəclərinin satın alınması**

**İştirak haqqı - 500 manat**

**Hesabın adı: "BAKI METROPOLİTENİ" QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09 sentyabr 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **17 sentyabr 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **18 sentyabr 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 16 və 27 iyul 2019-cu il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elanlar üzrə keçirilən 11 LOT-dan ibarət açıq tenderdə LOT 10. Elektron sənəd dövriyyəsi üçün proqram təminatının satın alınmasına dair Podratçılardan tələb olunan sənədlərin (tender təklifi və təklifin təminatı istisna olmaqla) son təqdim edilmə vaxtı uzadılaraq 20 sentyabr 2019-cu il, yerli vaxtla saat 18:00-a, tender təkliflərinin (təklifin təminatı ilə birlikdə) son təqdim edilmə vaxtı 01 oktyabr 2019-cu il, yerli vaxtla saat 18:00-a, tender təkliflərinin (zərflərin) açılışı isə 02 oktyabr 2019-ci, yerli vaxtla saat 11:00-a təyin olunmuşdur.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti xidməti minik avtomobilinin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

*Təkrar*

Tender 1 LOT üzrə keçirilir:

**LOT 1 -Xidməti minik avtomobilinin satın alınması;**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 400 (dörd yüz) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**H/h: AZ18CTRE00000000000004788202**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının vergi şəhadətnaməsinin və nizamnaməsinin təsdiq edilmiş surəti;*
- *iddiaçının bank rekvizitləri haqqında məlumat;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş mənfəət vergisi bəyannaməsinin surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *bənzər layihələr üzrə iş təcrübəsi haqqında məlumat;*
- *ixtisas uyğunluğunun müəyyənləşdirilməsi üçün sənədlər;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
- *digər sənədlər (-)*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **12 sentyabr 2019-cu il saat 17:00-dək,** tender təklifi və bank təminatını isə **19 sentyabr 2019-cu il saat 17:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **20 sentyabr 2019-cu il saat 15:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd.** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 24 may və 08 iyun 2019-cu il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elanlar üzrə keçirilən 2 LOT-dan ibarət açıq tenderin nəticələrinə əsasən LOT 2: Server tipli kompüterlər üçün ehtiyat hissələrinin satın alınmasında "Bakinity Distribution" MMC qalib olmuşdur.

Qalib şirkətlə 14 avqust 2019-cu ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

### "AZƏRİŞIQ" ASC "Polietilen boru ütüsü" satın alınması üzrə *kotirovka sorğusu keçirir*

Kotirovka sorğusu müsabiqəsində iştirak etmək istəyən iddiaçılar sənədlərini 22 avqust 2019-cu il saat 15:00-dək aşağıdakı ünvana təqdim etməlidirlər.

**Ünvan: Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8.**
**Əlaqə telefonu (012) 440-39-93 (23-32)**

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Danimarka Qrenlandiyanı ABŞ-a satmaqdan imtina etdi



Danimarkanın Baş Naziri Mette Frederiksen ABŞ-ın Qrenlandiyanı almaq istəyinə cavab olaraq bildirmişdir ki, ada satılmır. Bu barədə yerli KİV xəbər verir.

Danimarka lideri demişdir: "Qrenlandiya satılmır. Qrenlandiya Danimarkanın deyil. Qrenlandiya Qrenlandiyanındır. Çox ümid edirəm ki, ABŞ Prezidentinin adanı almaq istəyi ciddi deyil". Avqustun 16-da məlum olmuşdu ki, ABŞ Prezidenti Donald Tramp Qrenlandiyanı satın almaq imkanını nəzərdən keçirir. Bu ideya Prezidentin müşavirləri ilə müzakirə olunarkən qeyd edilmişdi ki, o, iqtisadi cəhətdən məqsədəuyğundur. Hesablamalara görə, Qrenlandiyanın satın alınması 10 trilyon dollara başa gələ bilər. Bu məbləğ ABŞ ÜDM-nin yarısından çoxdur.

Tramp Qrenlandiyanı Danimarkadan almaq niyyətində olduğunu təsdiqləmişdir. Onun dediyinə görə, bu məsələ ilə yalnız strateji baxımdan maraqlanmışdır. ABŞ Prezidenti əmin etmişdir ki, bu məsələ prioritet deyil.

## Hindistan ordusu Pakistan kəndlərini atəşə tutdu



Cəmmu və Kəşmirdə təmas xəttində Hindistan tərəfdən açılmış atəş nəticəsində Pakistanın iki dinc sakini həlak olmuş, biri yaralanmışdır. Bu barədə Pakistan Xarici İşlər Nazirliyi məlumat vermişdir.

Məlumatda qeyd olunur ki, Hindistan tərəfi sərhədyanı Hot-Sprinqs və Çirikot kəndlərini atəşə tutmuşdur. Pakistanın etirazı nazirliyə çağırılmış hindistanlı diplomatın nəzərinə çatdırılmış və vurğulanmışdır ki, atəşkəsin pozulması regionda sülhə təhlükə yaradır.

Regionda gərginlik Hindistan hakimiyyət orqanları əhalisinin əksəriyyəti müsəlman olan Cəmmu və Kəşmir ştatının xüsusi muxtar statusunu ləğv etdikdən sonra artmışdır. Pakistan Hindistanı BMT Təhlükəsizlik Şurasının qətnamələrini pozmaqda ittiham etmiş və cavab tədbirləri görməyə hazır olduğunu bildirmişdir.

Kəşmirdə toqquşmalar zamanı indiyədək 70 min nəfərdən artıq adam həlak olmuşdur.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi aparatın şöbə müdiri Anar Cəfərova atası

**ƏLİ CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu Filologiya fakültəsinin professoru

**PƏNAH İMRAN OĞLU XƏLİLOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Ağarəhim Calalov ailəsi ilə birlikdə Emin Hüseynova anası

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifov və nazirliyin kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin rəhbərliyi və kollektivi Emin Hüseynova anası

**SÜDABƏ MİRPAŞA QIZININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9004
Sifariş 2734
Qiyməti 40 qəpik